**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Bağırov Kamil Amil oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**______________________imza**

**"___" __________ 2021-ci il**

# "AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ TƏDQİQİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060403 - Maliyyə**

**İxtisaslaşma: Maliyyə menecmenti**

**Qrup: 644**

**Magistrant:**
**Bağırov Kamil Amil oğlu**
**______________________ imza**

**Elmi Rəhbər:**
**i.ü.f.d, b/m Həkimova Yeganə Allahyar qızı**
**______________________ imza**

**Proqram Rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**______________________ imza**

**Kafedra Müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________ imza**

**BAKI - 2021**

## Elm andı

Mən, Bağırov Kamil Amil oğlu and içirəm ki, “Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ TƏDQİQİ”**

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Sosial siyasətin maliyyə təminatının yaxşılaşdırılması hər zaman dövlətin diqqət mərkəzində olmuş və bu məqsədlə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi digər mənbələrlə yanaşı ildən-ilə artmaqdadır. Buna görə də müasir dövlətin sosıal siyasətinin maliyyə təminatında büdcənin rolunu artırmaq, əhalinin sosial-mədəni ehtiyaclarını ödəmək üçün büdcə vəsaitlərinin məqsədyönlü, iqtisadi və səmərəli istifadəsinə dair araşdırmalar aparmaq və sosial müdafiəni gücləndirmək xüsusilə vacibdir. Bu baxımdan tədqiqat işi mövzusunun aktual mövzulardan birinə həsr olunduğunu söyləmək olar.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatına dair tədqiqatın təkmilləşdirilməsi və bu sahədə mövcud olan problemlərin müəyyənləşdirilərək aradan qaldırılmasından ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tətqiqatın aparılması zamanı tədqiqat, müqayisəli təhlil, GZİT analizi və s. metodlardan istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi ilə əlaqəli araşdırma, yeni yanaşmalar, nəzəriyyə və təcrübi problemlər üzərində işi təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat işi ilə bağlı əsas məhdudiyyət dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi ilə bağlı kifayət qədər ədəbiyyatın olmamasıdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi bu sahədə təkmilləşdirmə ilə bağlı müasir metod və yanaşmaların istifadəsidir. Praktiki araşdırmalar əsasında qeyd etməliyik ki, Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi ilə əldə edilən nəticələri statistik göstəricilərdən görmək mümükündür.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın nəticələrindən, bu sektorda fəaliyyət göstərən mütəxəssislər, tələbələr, bu sahəylə maraqlanan şəxslər tərəfindən, əldə olunan nəticələrdən sosial siyasətin maliyyə təminatının təkmilləşdirilməsində istifadə edilə bilər.**



***Açar sözlər: dövlətin sosial siyasəti, maliyyə təminatı, iqtisadiyyatın inkişafı***

**“STUDY OF FINANCIAL POLICY OF STATE SOCIAL POLICY IN AZERBAIJAN”**

**SUMMARY**

**Relevance of the research: Improving the financial provision of the state's social policy has always been in the focus of the state, and the amount of funds allocated from the state budget for this purpose, along with other sources, is increasing every year. İt is important to increase the role of the budget in the financial provision of social policy of modern state, to conduct research on the purposeful, economic and efficient use of budget funds to meet the socio-cultural needs of the population and strengthen social protection. İt can be said that the research topic is devoted to one of the topical issues.**

**Purpose of the research: İs to improve the research on the financial provision of the state social policy and to identify and eliminate the problems in this area.**

**Research methods used: Comparative analysis, SWOT analysis, etc. were used.**

**Research database: Organizes work on research, new approaches, theory and practical problems related to the study of the financial provision of social policy of Azerbaijan.**

**Limitations of the research: The main limitation of the research is the lack of sufficient literature on the study of the financial provision of social policy.**

**Scientific novelty and practical results of the research: İs the use of modern methods and approaches to improvement in this area.**

**Areas where the results can be used: The results can be used by professionals and those interested in the field to improve the financial provision of social policy.**

***Keywords: state social policy, financial security, economic development***

# İXTİSARLAR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AR** | Azərbaycan Respublikası |
| **AHİK** | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |
| **AZN** | Azərbaycan manatı |
| **DSMF** | Dövlət Sosial Müdafiə Fondu |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

# MÜNDƏRİCAT

**GİRİŞ......................................................................................................8**

**I FƏSİL. DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI.............................................................................................13**

1.1. Dövlətin sosial-siyasətinin mahiyyəti və ümumi xarakteristikası....................13

1.2. Sosial siyasətin tərkibi və əsas istiqamətləri....................................................20

1.3. Sosial siyasətin iqtisadi və hüquqi əsasları.....................................................25

**II FƏSİL. AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ QİYMƏTLƏNDİRİLMƏSİ...............................30**

2.1. Sosial müdafiə və sosial təminatın maliyyə mənbələri.....................................30

2.2. Təhsilin inkişaf etdirilməsində maliyyə təminatı.............................................36

2.3. Səhiyyənin inkişaf strategiyasında dövlət büdcəsinin mahiyyəti......................42

**III FƏSİL. DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ..............................................52**

3.1. Sosial siyasətin maliyyələşdirilməsində büdcə rolunun artırılması..................52

3.2. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri.........................................................................................................57

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................68**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI...............................................71**

Cədvəllərin siyahısı...........................................................................................75

Şəkillərin siyahısı..............................................................................................75

Qrafiklərin siyahısı.............................................................................................75

Sxemlərin siyahısı..............................................................................................75

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycanda sosial sahədə dövlətin həyata keçirdiyi siyasət əhalinin sosial müdafiəsi, təhsili, səhiyyə, gənclər siyasəti və digər sosial-mədəni ehtiyacları ilə bağlı fəaliyyətləri əhatə edir. Hal-hazırkı dövrdə əhalinin sosial ehtiyaclarını ödəmək, təhsil səviyyəsini yüksəltmək, vətəndaşların sosial müdafiəsini gücləndirmək, cəmiyyət üzvlərinin mədəni ehtiyaclarını daha dolğun təmin etmək dövlətin vacib funksiyasıdır.

Əhalinin sosial-mədəni tələbatının qarşılanması dövlət siyasətinin mühüm istiqamətidir və onun maliyyə dəstəyi əsasən dövlət büdcəsinin vasitəsilə həyata keçirilir. 2019-cu ilin əvvəlində Azərbaycanın əmək qabiliyyətli əhalisinin təqribən 28-34%-i sosial infrastruktur sahəsində fəaliyyət göstərərək dövlət sosial siyasətinin həyata keçirilməsində birbaşa iştirak etmişdir.

Xüsusən nəzərə almaq lazımdır ki, cəmiyyətin sosial-mədəni tələbatları ilbəil artmaqdadır, bu da sosial məkanların və ölkəmizdə sosial infrastrukturun inkişafı, eləcə də sosial müdafiənin gücləndirilməsi üçün vəsaitlərin artırılmasını tələb edir. Ölkədə təhsil, səhiyyə, mədəniyyət, elm, sosial müdafiə və sosial müdafiənin inkişafı üçün digər sosial-mədəni tədbirlərin həyata keçirilməsinə ayrılan büdcə vəsaitlərinin həcmi ildən-ilə artır.

Təhsil, səhiyyə, sosial-mədəni fəaliyyətlər, idman, gənclər siyasəti, sosial təminat, sosial müdafiə və digər tədbirlər ölkəmizdə dövlət sosial siyasəti çərçivəsində dövlət qulluqçularının və icra hakimiyyətlərinin sosial fəaliyyətinin bir hissəsidir. Ümumiyyətlə, mərkəzi və yerli özünüidarəetmənin sosial siyasət sahəsindəki fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Dövlətin sosial siyasəti bütün dövlət qulluqçularının və dövlət qurumlarının ictimaiyyətlə əlaqələr sahəsindəki fəaliyyətinin əsasını təşkil edir.

İqtisadi siyasətin sosial mahiyyəti ölkəmizin müstəqillik qazandıqdan sonra demokratik inkişaf yoluna qədəm qoyması ilə əlaqədardır. Prezident İlham Əliyevin 29 dekabr 2020-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasının Dövlət Büdcəsi haqqında" Qanunun tətbiqi haqqında fərmanında göstərildiyi kimi, 2021-ci

il dövlət büdcəsi son illərdəki kimi büdcənin sosial yönümlülüyü ilə seçilir.

Ölkənin sosial siyasəti və fəaliyyətinin başlıca cəhətləri və komponentləri olan təhsil, elm, tibb, sosial müdafiə, sosial təminat, mədəniyyət, gənclər və idman siyasəti və s. kimi sahələr qeyri-istehsal sferasına aid olsa da, maddi istehsalın inkişafına aktiv formada təsir göstərir. Bu səbəbdən də dövlət sosial-mədəni sahələrin və sosial infrastrukturun davamlı inkişafına böyük əhəmiyyət verir. Bu baxımdan mövzu müasir dövrümüz üçün hələ də öz aktuallığını qoruyub saxlayır. Buna görə də mövzunun müasir metodlarla yenidən araşdırılması tərəfimizdən olduqca vacib hesab edilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi prosesi müxtəlif yerli və xarici yazıçıların elmi əsərlərində öz əksini tapmışdır. Bunlara Bağırov D.A., Həsənli M.X., Ələkbərov Ə.Ə., Əliyev A.Ə., Əsgərov Ə.X., Qasımov N.Ə., Alexander K.J., Becker S.G., Crouch T.A., Jackson R.M., Goeldner J.R., Manson J.A., Michael S.M. və başqalarını nümunə göstərmək olar.

Araşdırmalardan məlum olur ki, mövzuyla bağlı çoxlu sayda elmi yazılar, kitab və jurnallar çap edilmişdir. Bütün bunlar tətqiqatın aparılmasını olduqca asanlaşdırır.

Tədqiqatın əsasını mövzu ilə bağlı yerli və xarici mütəxəssislərin elmi əsərləri, yerli və xarici mətbuatda yer almış rəsmi məlumatlar və digər rəsmi internet saytlarında qeyd olunan məlumatlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi aşağıdakılardır:

1. Dövlətin sosial siyasətinin nəzəri-metodoloji əsasları barəsində məlumat vermək;
2. Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının qiymətləndirilməsini araşdırmaq;
3. Maliyyə təminatının təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək.

Tədqiqatın əsas vəzifələri aşağıdakılardır:

1. Sosial müdafiə və sosial təminatın maliyyə mənbələrini araşdırmaq;
2. Təhsilin inkişaf etdirilməsində maliyyə təminatını müəyyənləşdirmək;
3. Səhiyyənin inkişaf strategiyasında dövlət büdcəsinin mahiyyətini araşdırmaq;
4. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin predmetinə müasir şəraitdə dövlətin həyata keçirdiyi sosial siyasət və bu sahədə maliyyə təminatının yaxşılaşdırılması istiqamətində gördüyü tədbirlər sistemi daxildir.

Dövlətin sosial funksiyalarının fəaliyyət sferasına aid olan təhsil, tibb, sosial müdafiə və sosial təminat, gənclər, idman, o cümlədən digər ictimai-mədəni təşkilatların fəaliyyəti, saxlanılması ilə bağlı büdcə xərcləri sistemi dissertasiya işinin obyektidir.

**Tədqiqat metodları:** Tədqiqat işi bir neçə metodlardan istifadə edilərək tədqiq ediləcəkdir, bunlardan birincisi təhlil metodudur. Bu metod tədqiqat işlərində geniş formada istifadə olunan metodlardandır. Tədqiqat işində təhlil metodları, Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqini konkret şəkildə öyrənmək üçün nəzərdə tutulmuşdur.

İkinci metod sintez metodudur. Əvvəlki metoddan fərqli olaraq sintez, daha detallı bir araşdırma üçün fərdi elementləri (xassələri, atributları) vahid bütöv hala gətirmək üçün istifadə edilir.

Tədqiqat işinin yerinə yetirilməsində Dövlət Statistika Komitəsinin statistik və analitik-proqnoz məlumatları, aidiyyəti olan normativ aktlar, yerli özünüidarə orqanlarının inkişafı üzrə dövlət proqramları və onların icrasının nəticələri ilə bağlı materiallar, iqtisadi regionların pasport məlumatları və orqanların inkişaf göstəriciləri üzrə internet resurslardakı uyğun məlumatlar istifadə edilmişdir.

İstifadə etdiyimiz digər bir metod (üsul) problemin aydınlaşdırılması metodudur. Dissertasiyanın yazılması zamanı məqsəd və vəzifələri təyin etmək üçün problemləri düzgün müəyyənləşdirmək və təhlil etmək vacibdir. Seçdiyimiz

mövzuda problemlər yerli özünüidarəetmə sistemində maliyyə problemləri və onun həlli yollarının institusional imkanları ilə bağlı ola bilər. Bu problemləri təhlil etmək və problemlərin həlli üçün tədbirlər görmək həm Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının keyfiyyətini, həm də yerli orqanların imkanlarını artıracaqdır.

İstifadə etdiyimiz digər metod isə yuxarıda qeyd etdiyimiz metodla birbaşa bağlı olan risklərin dəyərləndirilməsi metodudur. Problem zamanı Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqində çıxa biləcək risklər analiz ediləcək və daha sonra onların reallaşması ilə bağlı ehtimallar nəzərdən keçiriləcəkdir. Risklər müəyyən edildikdən sonra onların reallaşma ehtimalını və baş verdikdə göstərəcəyi təsirləri nəzərə alaraq qiymətləndirilir və prioritetləşdirilir. Bu qiymətləndirmə həm riskin reallaşdırılması ehtimalını, həm də risk baş verərsə təsirini nəzərə alaraq aparılacaqdır. Hər bir risk, ehtimal və təsir səviyyəsinə görə yüksək, orta və aşağı olaraq təsnif ediləcəkdir.

İşin yekun hissəsində Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi üzrə SWOT analizi aparılacaqdır. Bu analiz vasitəsilə orqanların çatışmazlıqları, iqtisadiyyata yararlı əsas müsbət, habelə mənfi tərəfləri, mövcud olan problemlərin aradan qaldırılması üçün istifadə edilə biləcək imkanlar və s. qeyd olunacaqdır.

Materialların geniş formada şərh edilməsi zamanı iqtisadi təhlil, analiz-sintez üsullarından və ehtiyac olduqda digər tədqiqat metod və üsullarından da istifadə olunacaqdır.

**Tədqiqatın informasiya bazası:** Daxili və xarici iqtisadçıların Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi ilə əlaqəli nəzəriyyələri və praktikası problemləri üzərində apardıqları işlər təşkil etmişdir.

Tədqiqatda müxtəlif kitablar və dünya ölkələrinin sosial təminatı ilə bağlı xarici məqalə materiallarından geniş istifadə edilmişdir. Məlumat bazası eyni zamanda elmi və praktik konfransların materialları, internet saytları və statistik materiallarıdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın əsas elmi yeniliyini aşağıdakı kimi əks etdirə bilərik:

1. Mövzunun konseptual və nəzəri-metodoloji əsasına, müasir vəziyyətinə aydınlıq gətirilmişdir:

a) "Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqi" anlayışına müəllifin şəxsi yanaşması formalaşdırılmışdır.

b) mövzuyla bağlı konsepsiya, prinsiplər və təkmilləşdirmə yolları araşdırılmışdır.

2. Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının tədqiqinə dair mövcud metod və modellərin sintezi, habelə fəaliyyət göstəricilərinin müqayisəli təhlili metodlarına əsaslanaraq mövzunun tədqiqinə metodik bir yanaşma hazırlanmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın aparılması zamanı əldə olunan nəticələr və qeyd olunmuş təkliflər Azərbaycanda dövlətin sosial siyasətinin maliyyə təminatının təkmilləşdirilməsi prosesində müasir yenilik potensialı üçün istifadə edilə bilər.

Tədqiqat işinin başlıca müddəalarına əsaslanaraq dövlət sosial təminatı strategiyasının hazırlanmasında və həyata keçirilməsində istifadə edilə bilər.

Bununla belə mövzudan xidmət müəssisələri tərəfindən, səhiyyə, elm və digər sahələrdə inkişaf perspektivini artırmaq üçün istifadə edilə bilər.

# I FƏSİL. DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Dövlətin sosial siyasətinin mahiyyəti və ümumi xarakteristikası

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə, mövcud tənzimləmələrin inkişafı və sosial siyasətdəki məsələlərin zənginləşdirilməsinin innovativ kontekstdə nəzərdən keçirilməsi, hər zaman kütləvi sosial işçi kütləsinin hüquqlarını müdafiə etmək səyləri baxımından əhəmiyyətli olmuşdur. Bu işdə sosial siyasət və sosial xidmətlər sahəsini genişləndirmək üçün yeni yollar axtarmaq və innovativ perspektivləri inkişaf etdirmək vurğulanmışdır.

Sənaye inqilabı, iqtisadiyyatı əkinçilikdən sənaye quruluşuna çevirən və XVIII əsrin ikinci yarısından sonrakı dövrdə İngiltərədə ortaya çıxan və dünyanın bütün ölkələrinin sosial və iqtisadi toxumasında əhəmiyyətli dəyişikliklərə səbəb olan bir inkişafdır.

Bununla birlikdə, sənaye inqilabından sonra ortaya çıxan yeni vəziyyətdə, aclıq, yoxsulluq, istismar və insanlığa uyğun olmayan iş şərtləri kimi problemli hallar artmağa davam etdi. Sosial baxımdan XVIII əsr maarifçilik dövrü ilə ortaya çıxan əhəmiyyətli inkişafın, hər kəsin dünyada mövcud olan nemətlərdən bərabər şəkildə faydalanmasının vacibliyinə dair görüşün olduğunu söyləmək olar. Bu müasir anlayış, cəmiyyəti təşkil edən fərdlərin dinc və firavan yaşaması üçün tənzimləmələri hədəf alan sosial siyasət anlayışının inkişafını sürətləndirdi. Sosial ədalət və insan haqlarına söykənən bu yeni anlayış, sosial maraqlara uyğun olmayan siniflər arasında ziddiyyətlərin qarşısının alınması missiyası ilə müasir sosial rifah dövlətinin əsas fəlsəfəsini formalaşdırmışdır (Kenn Y.H., 2001: s.21).

Etimologiya baxımından araşdırıldıqda sosial siyasət və sosial iş həmişə bir-biri ilə sıx və qarşılıqlı əlaqədə olan sahə kimi seçilir. Sosial siyasətin vacib alətlərindən biri olan sosial xidmət yanaşmasına görə; fərd, sosial-iqtisadi şərtlərin məhsulu kimi qəbul edilir və onun dövlətin problemli sosial-iqtisadi şəraitinin yaxşılaşdırılmasında mühüm rola malik olduğu vurğulanır. Bu vəziyyət, sosial rifah

dövlətinin sosial-iqtisadi şəraitinin yaxşılaşdırılması və fərdlərin əsas ehtiyaclarının ödənilməsi kimi vəzifələrin olduğunu xatırladır. Rifah dövləti bu rolu bəzən məşğulluq siyasəti və bəzən də birbaşa gəlir transferi dəstəyi ilə həyata keçirir.

Sosial siyasət, cəmiyyətin hər bir üzvünə qabiliyyətlərinin (əmək, təşəbbüskar, fərdi) inkişafı və istifadəsi üçün lazım olan minimumu və müəyyən bir yaşayış səviyyəsinin təminatını verən, bunların itirildiyi təqdirdə onu təmin edən iqtisadi münasibətlər sistemidir (Кочетков А.А., 2005).

Sosial siyasətin ən vacib vəzifələrindən biri, ilk növbədə əhalinin zəif qorunan təbəqəsinə sosial dəstəyin həyata keçirilməsidir. Bu problemin həlli üçün vergilər və sosial transfertlər vasitəsilə əhalinin aktiv hissəsi ilə işləməyən (iş qabiliyyəti olmayan) ehtiyaclı vətəndaşların gəlirlərinin optimal nisbətləri təmin olunmalıdır (Булатов А.С., 2003).

Təhsil, səhiyyə, ədliyyə, sosial xidmətlər, iş şəraiti və hər kəs üçün aşağı standartın yaradılması kimi əsas məsələlərdə minimum təminat imkanlarının tətbiqi də daha yüksək standartlara çatmaq üçün başlanğıc nöqtəsidir. Bu baxımdan, müasir rifah dövlətləri bazardan kənara çıxmış və sosial ədalət ideyasına əsaslanaraq bəzi riskləri, xüsusən də sosial riskləri təmin etmişlər.

Sosial siyasətin əsas mövzusu dövlətdir. Dövlət insanlara səlahiyyət, qanun və güc vasitəsilə insanların həyatına, cəmiyyətdəki davranışlarına müəyyən təsir göstərmək imkanı və qabiliyyəti verən bir hökumətdir.

Böyük sosial qrupların və siniflərin mənafelərinə toxunan və dövlət hakimiyyətinin həyata keçirilməsi ilə əlaqəli hər hansı bir sosial problem siyasi xarakter daşıyır. Siyasətin əsas cəhətlərindən biri budur ki, sosial qrupların və ümumiyyətlə cəmiyyətin maraqları və iradəsi ümumiləşdirmə, inteqrasiya kimi fəaliyyət göstərir. Dövlətin sosial siyasət və sosial istiqamətli xərc siyasətində həyata keçirdiyi tədbirlər planı genişmiqyaslı olmaqla zəruri əhəmiyyət daşıyır (Rasimoğlu R., 2012). Bu mənada sosial siyasət, məzmun və vəzifələr baxımından iqtisadiyyata görə ikinci yerdədir.

Sosial sahədə cəmiyyətin iqtisadi fəaliyyətinin nəticələri aşkarlanır və qiymətləndirilir, səmərəliliyi, insanların maraq və ehtiyaclarını ödəmək qabiliyyəti yoxlanılır. Sosial sahədə dövlət siyasətinin humanizm dərəcəsi əks olunur.

Nəhayət, sosial siyasət olmadan insan fəaliyyətini yeniləmək və ictimai inkişafın və iqtisadi uğurun istehsal gücünün mühüm elementi olan yaradıcı başlanğıcı həyata kecirmək mümkün deyil (Булатов А.С., 2003).

Sosial siyasətin özünün məzmunu, formaları, o cümlədən hazırlanması və həyata keçirilməsi metodlarına görə tələblərin mahiyyətini əks etdirən bir sıra prinsipləri mövcuddur(Əsgərov Ə.X., 2006: s.27):

- humanizm, sosial ədalət;
- sistemləşdirmə, davamlılıq, varislık;
- sosial siyasəti həyata keçirmək üçün məqsəd və imkanları tarazlaşdırmaq (zamana və tələb olunan mənbələrə görə);
- açıqlıq - cəmiyyətin bütün qruplarının və təbəqələrinin sosial siyasət məsələlərinə dair fikirlərini sərbəst şəkildə ifadə edə bilməsi, hakimiyyət və insanlar arasında "əks əlaqə" mövcudluğu;
- sosial siyasətin hazırlanmasında və həyata keçirilməsində demokratiya (qlobal ictimai-siyasi qərarlar layihəsinin açıq müzakirəsi, sosial yeniliyin əsas problemlərinə dair hərtərəfli ictimai bəyanat);
- sosial siyasətin həyata keçirilməsinə ictimai nəzarət;
- əhalinin sosial müdafiəsi, ən həssas və az gəlirli hissəsinə göstərilən sosial yardımın gücləndirilməsi üçün məqsədyönlü tədbirlər.

Sosial siyasətin məzmunu, məqsədi və problemləri bir qədər azad, lakin bir-biri ilə möhkəm əlaqəli funksiyalar sistemində ortaya qoyulur.

Bunlardan ən əhəmiyyətlisi aşağıdakılardır:

- sosial qrupların və cəmiyyət təbəqələrinin ayrı-ayrı fərdlərinin maraqlarının ifadə olunması, qorunması, uyğunlaşdırılması;
- sosial sahədə sosial münaqişələrin optimal həlli, vətəndaşlarla dövlət arasında "dialoq" praktikası;

- müxtəlif əhali təbəqələrinin inteqrasiyası, ümumi sosial sistemin qorunması, sabitlik və qayda-qanunlara riayət;
- əhalinin sosial müdafiəsi;
- sosial proseslərin idarə olunması və s.

Bu funksiyalar sayəsində sosial siyasətin əsas predmeti olan ictimai münasibətlərin qarşılıqlı əlaqəsi təmin edilir və cəmiyyətin sosial inkişafı idarə olunur.

Sosial müdafiə sistemində çalışan kadrların peşəkarlığı, mövcud problemləri müəyyənləşdirmək, qiymətləndirmək və təhlil etmək, habelə müsbət dəyişiklik proqramı hazırlamaq bacarığı vacibdir. Sosial siyasət sosial təminat üçün mühüm metodoloji rol oynayır. Dövlətin sosial siyasətinin müəyyən bir istiqamətə yönəldilməsi sosial müdafiənin məzmunu və təşkilati əsaslarıdır.

Sosial siyasət, cəmiyyətdəki ehtiyaclarını və maraqlarını həyata keçirməyə çalışan insanların sosial təminatının praktik təşkilində forma və istiqamətdə dinamik bir fəaliyyətdir. Buna görə də, dövlətin idarəetmə strukturları qanunların və normativ hüquqi tənzimləmələrin vasitəsilə sosial siyasətin zaman və məkanda dəyişən insan həyat şərtlərinə uyğunlaşdırılması üçün ilkin bir şərt yaratmağa çalışırlar (Əsgərov Ə.X., 2006). Bu səbəbdən insanların maraqlarına və ehtiyaclarına birbaşa təsir göstərən sosial siyasət gerçəkliyi problemi, hər kəsin həyat şəraitində taleyini əks etdirərək həm yaradıcı, həm də dağıdıcı potensiala malikdir.

Beləliklə, sosial siyasətin aspektlərini araşdırarkən bir sıra vəzifələrin mühüm olduğu aşkar edildi. Bunlara; bazar iqtisadiyyatı şəraitində Azərbaycanda sosialyönümlü siyasətin əsas cəhətlərini yoxlamaq, həyata keçirmə yollarını seçmək və ölkədə islahat proqramının spesifik mexanizmlərini elmi baxımdan qiymətləndirmək və sosial problemlərin həllini beynəlxalq səviyyəli qanun və aktların tələblərinə uyğun təmin etmək daxildir.

Respublikamızın milli, mədəni və demoqrafik xüsusiyyətini nəzərə alaraq, məşğulluğun artırılması və yoxsulluğun aradan qaldırılması ilə birlikdə sosial siyasətin əsas məqamlarına görə orta gəlirli ailələrin ümumi əhalidəki payının

artırılması yollarını və iqtisadi tədbirlərini qiymətləndirmək lazımdır (Nəsrullayev F.A., 1999).

Sosial siyasətin kompleks həyata keçirilmə mexanizmi hədəflərə çatmağı qarşıya məqsəd qoyur. Bu mexanizmin quruluşu belədir:

- sosial siyasət subyekti - sosial proseslərin tənzimlənməsinə uyğun olan amillərlə çıxış edən dövlət;
- siyasi partiyalar, ictimai hərəkatlar və digər qeyri-hökumət təşkilatları;
- sosial siyasətin məqsədi - cəmiyyətdə fərqli mənalar kəsb edən və müxtəlif formalarla özünü göstərən sosial proseslər;
- sosial siyasətin subyektləri və obyektləri arasındakı münasibətləri qaydaya salan normativ-hüquqi aktlar sistemi.

Sosial siyasət rifah və sərvət bölgüsü ilə əlaqəli bir sıra tədbirlər toplusudur. Rifah fenomenini bütöv bir şəkildə qəbul etmək və siyasətləri vahid bir şəkildə həyata keçirmək lazımdır. Əks təqdirdə, sərf olunan vaxtdan, puldan və səydən gözlənilən nəticələri əldə etmək çətin olacaqdır. Bu tədqiqatın məqsədi effektiv sosial siyasət sistemi yaratmaq üçün bütün rifah komponentlərini eyni vaxtda qiymətləndirməyə imkan verən vahid bir model təklif etməkdir.

İctimai-siyasi rifah səviyyəsini təyin etmək üçün istifadə edilə bilən alt indeks parametrlərindən də bəhs olunur. Araşdırmanın məqsədi Azərbaycandakı sosial siyasət xaricində həyata keçirilərək daha aktiv olmağa kömək edir. Tədqiqatda ədəbiyyat icmalı və fenomenoloji analiz metodlarından istifadə edərək qarşılıqlı qiymətləndirmələr aparılacaqdır. Nəticədə, hər bir rifah komponenti üçün araşdırılan makro ictimai-siyasi məsələlərlə əlaqəli mövzular araşdırılaraq, vəzifə sahələri çərçivəsində kəsişmə qrupları yaradılaraq bütöv bir sosial siyasət idarəetmə modeli təklif ediləcəkdir.

Sosial siyasət sərvətin formalaşması və səmərəli bölüşdürülməsi üçün həyata keçirilən tədbirlər məcmusudur. Bu siyasət rifah anlayışı quruluşu baxımından çox geniş bir sahəni əhatə edir. Sosial siyasətin müvafiq kontekstdə rifah qurması üçün buna bənzər geniş bir perspektiv olmalıdır. Bu siyasət dar əhatəli ictimai-siyasi

tədbirlər aparılan işlərin daha geniş ictimaiyyət tərəfindən anlaşılmasının qarşısını alır. Bu vəziyyət, sosial siyasətin, geniş ictimaiyyəti maraqlandıran həyati bir məsələ olduğunu başa düşmək əvəzinə müəyyən bir seqmentin ehtiyaclarını ödəmək üçün tətbiq olunan tədbirlər kimi qəbul edilməsinə səbəb olur. Bununla birlikdə sosial siyasət cəmiyyətin hər bir təbəqəsinə açıq şəkildə təsir edir.

Bu işdə, təsirli bir sosial siyasət sistemi yaratmaq üçün bütün rifah komponentlərinin eyni vaxtda qiymətləndirilməsini mümkün edən vahid bir model təklifinin hazırlanması hədəflənir.

Hər bir rifah komponenti geniş baxımdan araşdırılır və digəri ilə qarşılıqlı əlaqəsi müəyyən edilir. Bundan əlavə, hər bir rifah komponenti üçün ictimai-siyasi rifah səviyyəsini ölçmək üçün istifadə edilə bilən alt indeks parametrlərindən də bəhs olunur. Beləliklə, müxtəlif tədqiqatlar çərçivəsində bir çox parametrlərlə ictimai-siyasi inkişafı ölçə bilən indeks inkişaf etdirmək üçün istifadə edilə bilən dəyişənlərin müəyyənləşdirilməsinə çalışılmışdır.

Tədqiqat işində araşdırılan rifah komponentləri ilk növbədə iki makro sinifə bölünür. Birinci təsnifat məşğulluq, səhiyyə, mənzil, təhsil, sosial müdafiə, nəqliyyat, cinayətkarlıqla mübarizə və ətraf mühit daxil olmaqla ümumi tədbirləri əhatə edir.

İkinci təsnifat daha mikro səviyyədə həyata keçirilən ailə, uşaq, qadın hüquqları, əlil qruplar üçün siyasət olaraq sıralana bilən xüsusi tədbirlər qrupunu əhatə edir. İkinci qrup təsnifatı sosial işin əhatə dairəsinə daha yaxındır. Məlum olduğu kimi, Azərbaycanda sosial siyasətin əhatə dairəsi ikinci təsnifat altında çox vaxt tənəzzülə uğrayır.

Sosial-siyasi tədbir baxımından məşğulluq aktiv və passiv əmək bazarı siyasəti ilə birbaşa əlaqəyə malikdir. Aktiv siyasətlər arasında iş yerində təhsil proqramları, peşə təhsili kursları, icma işləri, sahibkarlıq təlimi və əlavə məşğulluq subsidiyaları yer alır. Passiv siyasətlərə işsizlik sığortası, əmək haqqı zəmanəti fondu və qısa müddətli iş müavinəti kimi birbaşa ödəmə dəstəkləri daxildir. Bu halda proqrama ictimai-siyasi baxımdan daxil edilməsi üçün tələb olunan məşğulluq tədbirləri ilk

növbədə aktiv və passiv əmək bazarı siyasətini əhatə etməlidir. Məşğulluğun əsas elementlərindən biri əmək haqqıdır. Rifahın qurulması üçün əmək haqqı siyasətlərinə müdaxilə də sosial siyasətin bir hissəsini təşkil etməlidir. Bu vəziyyətdə, əmək haqqı siyasəti / səviyyəsi müəyyən edilərkən ictimai-siyasi makro tarazlıqlar nəzərə alınmalıdır. Əmək haqqı münasibətləri, əmək haqqındakı cinsi ayrı-seçkilik, nağd pul, maaşların həyat keyfiyyətinə təsiri kimi bir çox məsələ birbaşa sosial siyasətə aid edilir (Nəsrullayev F.A., 1999).

Bu mərhələdə sosial siyasət hər bir dövlətin həyatında mühüm rol oynayır. Sosial siyasətin dünya birliyi ölkələrinin, xüsusən inkişaf etmiş ölkələrin həyatındakı əhəmiyyəti, bu ölkələrdə yaşayan insanların sosial həyatında ciddi dəyişikliklərə səbəb olur və insanların sosial və yaşayış şərtlərini yaxşılaşdırır (Ələkbərov Ə.Ə., 2005).

Bu xüsusiyyətlərə əsaslanaraq sosial siyasətin nəzəri və praktik əhəmiyyətini, məqsədini və mövzusunu, subyektlərini, bu məsələlər arasındakı əlaqələri, mövcud cəmiyyətin sosial siyasətə təsirini, inkişaf etmiş ölkələrdə tətbiq olunan sosial modelləri və bu modellərdən bəhrələnmə yollarını aydınlaşdırmaq tədqiqat işimizin əsas vəzifələrindəndir.

Ən vacib vəzifələrdən biri hal-hazırda ölkəmizin inkişaf xüsusiyyətlərini nəzərə alaraq öyrənmək və həyatımızda tətbiq etməkdir. Bu vəzifə ölkəmizdə həyata keçirilən sosial siyasətin elmi və nəzəri əsaslarının aydınlaşdırılmasını və dövlətin sosial siyasətinin formalaşması üçün zəruri istinad nöqtələrinin müəyyənləşdirilməsini tələb edir. Sosial siyasət konsepsiyasının hərtərəfli təhlili olmadan bu siyasətin formalaşmasını, cəmiyyətdə və insanların həyatında oynadığı mühüm rolu və onun mahiyyəti barədə fikirlərimizi ortaya qoymadan müxtəlif ölkələrin sosial siyasətinin prinsiplərini, formalaşma yollarını aşkar etmək və həll yollarını tapmaq mümkün deyil.

## 1.2. Sosial siyasətin tərkibi və əsas istiqamətləri

Respublikamızın dövlət sosial siyasəti əsasən yerli əhalinin sosial təminat, təhsil, səhiyyə, gənclər siyasəti və digər sosial və mədəni ehtiyaclar sahəsindəki əsas fəaliyyətlərini əhatə edir. Hal-hazırda dövlətin əsas vəzifəsi vətəndaşların sosial ehtiyaclarını ödəmək, təhsil, səhiyyə, sosial təminat və ictimai təhlükəsizliyi yaxşılaşdırmaq, cəmiyyətin mədəni ehtiyaclarını daha yaxşı qarşılamaqdır.

Əhalinin sosial və mədəni ehtiyaclarını ödəmək dövlətin sosial siyasətinin ilk tərəfidir və onun maliyyə dəstəyinin dövlət büdcəsindən təmin edildiyi danılmaz bir faktdır.

Qeyd etməliyik ki, əhalinin sosial və mədəni ehtiyacları ilbəil artır və bu vəziyyət ölkədə sosial siyasətin inkişafı, habelə sosial infrastrukturun və sosial müdafiənin gücləndirilməsi üçün daha çox maliyyə tələb edir.

Azərbaycan Respublikasında dövlət sosial siyasəti çərçivəsində təhsil, səhiyyə, sosial-mədəni fəaliyyətlər, incəsənət, idman, gənclər siyasəti, sosial təminat və digər tədbirlər dövlət qulluqçularının mülki və dövlət fəaliyyətinin əsasını təşkil edir. Sosial siyasət sahəsində mərkəzi və yerli özünüidarəetmə qurumlarının fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası ilə tənzimlənir. Dövlət sosial siyasəti bütün dövlət qulluqçularının və dövlət qurumlarının ictimaiyyətlə əlaqələr sahəsindəki fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycanın iqtisadi siyasətinin sosial elementi, ölkənin müstəqilliyini bərpa etdikdən sonra demokratik inkişaf yolu ilə getməsidir.

Azərbaycan Respublikasındakı mövcud vəziyyəti nəzərə alaraq dövlətimiz hər il dövlət büdcəsindən sosial siyasət, təhsil, elm, səhiyyə, mədəniyyət və digər sosial-mədəni tədbirlərin yaxşılaşdırılması və sosial müdafiənin gücləndirilməsi üçün çoxlu investisiya ayırır.

Əsas sosial siyasət istiqamətlərinin və dövlət büdcəsindən maliyyələşmənin dinamikasına aşağıdakı cədvəldə baxmaq olar:

**Cədvəl 1: Sosial xərclərin tərkibi və əsas istiqamətləri.**

| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri- toplam (milyon manatla) | 18495,0 | 17941,0 | 21047,0 | 25190,0 | 27492,0 |
| Ondan: | | | | | |
| Təhsil xərcləri | 1830,2 | 1791,2 | 2001,9 | 2285,9 | 3034,7 |
| Büdcə xərclərinin xüsusi çəkisi-%-lə | 9,9 | 10,0 | 9,5 | 9,1 | 11,0 |
| Səhiyyə (sağlamlıq) xərcləri | 830,8 | 746,7 | 739,3 | 1042,5 | 1716,6 |
| Büdcə xərclərinin xüsusi çəkisi %-lə | 4,5 | 4,2 | 3,5 | 4,1 | 6,2 |
| Sosial müdafiə və sosial təminat xərcləri | 2698,7 | 2352,0 | 2197,2 | 2620,4 | 3237,0 |
| Büdcə xərclərinin xüsusi çəkisi %-lə | 14,6 | 13,1 | 10,4 | 10,4 | 11,8 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və s. | 738,6 | 282,5 | 306,1 | 359,1 | 426,1 |
| Büdcə xərclərinin xüsusi çəkisi %-lə | 4,0 | 1,6 | 1,4 | 1,4 | 1,5 |

**Mənbə:** https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmizin büdcə sistemində aparıcı və istıqamətləndirici baxımdan əsas rol oynayan dövlət büdcəsi ölkənin yaxın və uzaq gələcəyi üçün elm əsaslı inkişaf strategiyasına əsaslanmaqdadır.

Ölkə başçısı İlham Əliyev iqtisadiyyatın qloballaşması şəraitində baş verən hadisələri, onların ölkəmizə göstərdiyi təsiri obyektiv qiymətləndirərək, sosial-iqtisadi inkişaf tapşırıqlarının uğurlu icrası məqsədilə sistemli tədbirlər təklif etmiş və ölkədə strateji marşrutun həyata keçirilməsi üçün effektiv icra mexanizmi yaratmışdır.

"2014-2018-ci illər üçün Regionların Sosial-İqtisadi Baxımdan İnkişaf Proqramının uğurlu icrası bunun əyani sübutudur. Hazırda regionların 2019-2023-cü illərin sosial-iqtisadi inkişaf proqramının üçüncü ili uğurlu şəkildə həyata keçirilir.

Ölkə iqtisadiyyatının iqtisadi və dinamik inkişafı, habelə büdcə gəlirlərinin artması bütün sahələrdə, xüsusən də sosial-mədəni ehtiyacların ödənilməsində büdcənin rolunun artırılmasını zəruri etmişdir. İndiki dövrdə dövlətin sosial

funksiyasının maddi təminatının yaxşılaşdırılması və dövlət büdcəsinin inkişafındakı başlıca xüsusiyyətlərdən biri kimi əhalinin sosial-mədəni ehtiyaclarının təmin olunmasında büdcə vəsaitlərinin artırılması diqqət mərkəzindədir.

2020-ci ildə sosial fəaliyyətin maliyyələşdirilməsinə üstünlük verilmiş və planlaşdırılan dövlət proqramlarına tam nail olunmuşdur. 2020-ci il ərzində büdcədən sosial tədbirlərə büdcə xərclərinin 30,6 faizinə qədəri yəni, 8,4 milyard manat ayrılmışdır.

15 iyul 2020-ci il tarixində ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin ilk yarısının sosial-iqtisadi nəticələrinə dair Nazirlər Şurasının iclası keçirilmişdir. İclasda çıxış edən Prezident vurğulamışdır ki, “Sosial proqramların həlli hər zamankı kimi vacibdir”.

Son 16 ildə Azərbaycanda 3200-ə qədər məktəb və 750-ə qədər səhiyyə müəssisəsi tikilib və təmir olunmuşdur. Bu proses hələ də davam etməkdədir. Bu onu göstərir ki, maddi imkanlarımız azalsa da, sosial infrastrukturun yaxşılaşdırılması üçün lazımi tədbirlər görürük və bu səbəbdən bütün sosial proqramlar Azərbaycanda həyata keçirilir.

2020-ci il dövlət büdcəsindəki təhsil xərcləri sosial yönümlü fəaliyyət büdcəsinin 36,1%-ni təşkil edir. Təhsil xərclərinə ayrılan pulun 58,7% -i dövlət büdcəsinin yerli xərclərindən (1781,4 milyon AZN), 41,3% -i və ya 1253,3 milyonu mərkəzləşdirilmiş xərclərdən əldə edilmişdir. İnternat və özəl məktəblər də təhsildə mühüm rol oynayır. 2020-cu ildə 49,9 milyon AZN və ya təhsil büdcəsinin 1,6% -i internat məktəblərinin və özəl məktəblərin saxlanmasına xərclənmişdir.

2020-ci ilin büdcəsində 127,8 milyon AZN yaxud ümumi təhsil xərclərinin 4.2%-i peşə məktəblərinə və orta məktəb qayğılarına xərclənmişdir.

2020-ci ildə tətbiqi tədqiqatlara və təhsildə digər xərclərə 863 milyon AZN ayrılmışdır. Ali təhsil müəssisələrinin texniki xidmət xərcləri təhsil xərclərində vacib rol oynayır. 2020-ci il ərzində ali təhsilin maliyyələşdirilməsi üçün 49 milyon

AZN ayrılmışdır ki, bu da təhsilin maliyyələşdirilməsinə ayrılan vəsaitin 1,6 faizini təşkil edir.

Dövlətin müvafiq proqramlarına uyğun olaraq əhaliyə göstərilən tibbi xidmətlər sahəsində obyektiv işlər görülmüşdür. 2020-ci il ərzində səhiyyə üçün büdcə fondları 64,7% artaraq 1716,6 milyon manata çatmışdır. Bu zaman tibb müəssisələrinin yaradılması üzrə fəaliyyətlər yüksək tələblərə cavab verərək davam etdirilmiş, 2020-ci ildə tibb sahəsində proqram və tədbirlər üçün 1547,8 milyon AZN xərclənmişdir. 2020-ci ildə səhiyyə xərclərinin 166 milyonu və ya 9,6% -i poliklinikalar və xəstəxanalara xərclənmişdir.

**Qrafik 1: 2020-ci il sosial büdcə xərclərinin istiqamətlər üzrə payı.**




**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

2020-ci il dövlət büdcəsi hökumətin son illərdəki sosial liberalizm xəttinin sabitliyini əks etdirir. Hökumətin başlıca siyasəti vətəndaşların sosial vəziyyətini yaxşılaşdırmaq olduğundan bu məsələ hər il dövlət büdcəsində prioritet hesab olunur. 2020-ci ildə büdcədəki sosial xərclərin payı 30,6% (və ya 8414.4 milyon manat, bu da 2019-ci ilin büdcəsindən təqribən 33,4% çox) olmuşdur.

2020-ci ildə mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri, gənclər və idman siyasəti xərcləri 2019-cu ilə nəzərən 18,6% artaraq 426,1 milyon manata

çatıb. Prioritetlərdən biri də 2021-ci ildə ölkə əhalisinin rifahının və sosial təminatının təkmilləşdirilməsi üçün məqsədyönlü bir kursun davam etdirilməsi olmuşdur. Bu vəzifələrə elm və tədqiqat, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, və hüquq-mühafizə orqanlarının işçiləri, dövlət büdcəsindən maliyyə yardımını alan işçilər və dövlət qulluqçularının minimum əmək haqqının artırılması aiddir.

Radiasiya qəzaları, əlillik, ailə başçısının itirilməsi, uşaqların doğulması, 18 yaşınadək əlil uşaqlar, yetimlər və valideyn himayəsi olmayan uşaqlar, şəhid övladları, o cümlədən zəruri sosial qurbanlara, müharibə qazilərinə verilən müavinətlər, cənazə müavinətləri, məcburi köçkünlər üçün yemək, əmək pensiyalarının minimum miqdarı, şəhid ailələri, müharibə veteranları və Azərbaycanın milli qəhrəmanları üçün ölkə başçısının təqaüdləri, orta təhsil pilləsində təhsil alan şagirdlərə, təhsil sistemində ilk peşə ixtisaslarına və doktorantlara da təqaüdlər artırılıb. 2020-ci il dövlət büdcəsindən maaş və sosial ödənişlərin artırılmasına 350 milyon manatdan çox vəsait xərclənmişdir.

**Qrafik 2: Sosial müdafiə və sosial təminat xərclərinin illər üzrə dinamikası.**




**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Yuxarıdakı qrafikdəndən də məlum olduğu kimi, 2020-ci ildə büdcənin sosial tendensiyası prioritet olaraq qorunub saxlanılmış və büdcə xərclərinin 11,8% -i və ya 3.2 milyard manatı sosial müdafiə yönümlü tədbirlərə, o cümlədən, əmək kompensasiya fondu, pensiya və sosial müavinətlər, dərman, qida və s. kimi məqsədlər üçün ayrılmışdır. Bu, 2019-cu ilə görə 0,6 milyard AZN, 2018-ci illə müqayisədə isə 1 milyard AZN çoxdur. Göründüyü kimi sosial islahatların nəticəsi ölkədə sosial müdafiə sahəsinə də öz müsbət təsirini göstərmiş, xüsusən də son illərdə bu sahəyə ayrılan vəsaitlərin miqdarı ildən-ilə əhəmiyyətli şəkildə artmışdır.

Məlumdur ki, ölkəmiz iqtisadi cəhətdən inkişaf etdikcə, gəlirlər artdıqca, sosial siyasətin maliyyələşdirilməsi üçün büdcədən ayrılan vəsaitin miqdarı da artır. Bu hal birbaşa olaraq vətəndaşların xeyrinədir. Əlverişli sosial şəraitin yaradılması təhsil, səhiyyə və sosial təminat üçün vacibdir.

### 1.3. Sosial siyasətin iqtisadi və hüquqi əsasları

Dövlətin sosial siyasəti cəmiyyətin sosial-iqtisadi şərtlərini tənzimləmək üçün qruplar təşkil edir. Həmçinin, sosial siyasət gəlir bərabərsizliyini azaltmaq, bazar iqtisadiyyatı şəraitində icma üzvlərinin gəlirləri ilə varlıqları arasındakı fərqi, iqtisadi fəaliyyət iştirakçıları arasındakı ziddiyyətləri azaltmaq və cəmiyyətdəki sosial qarşıdurmaları aradan qaldırmaq məqsədi daşıyır. Bazar iqtisadiyyatı sistemində sosial prinsiplər mülkiyyət sahəsindəki mövcud bərabərsizliklərin aradan qaldırılmasını təmin edən, cəmiyyət üzvlərinin hamısı üçün bərabər həyat şərtlərini formalaşdıran sosial siyasətlə həyata keçirilir (Əsgərov Ə.X., 2006).

Dövlətin sosial siyasəti ilə cəmiyyətin iqtisadi inkişafı arasında bir əlaqə var. Birincisi, iqtisadi inkişaf hədəfləri birbaşa və dolayı yolla sosial siyasətə yönəlmişdir. Ümumiyyətlə, iqtisadi fəaliyyətin cəmiyyətin bütün üzvləri üçün yaşana bilən yaşayış şəraiti yaratmaq üçün həyata keçirildiyi aydındır.

Bundan əlavə, sosial siyasət sahəsindəki əksər məsələlərin həyata keçirilməsi, onları həyata keçirmək üçün dövlətin əlində olan iqtisadi mənbələrdən asılıdır.

Üçüncüsü, sosial siyasət iqtisadi artımın vacib amili kimi qəbul edilə bilər. İqtisadi artım insanların yaşayış səviyyəsinə təsir göstərmirsə, insanların məhsuldar işə marağı azalır, əmək keyfiyyəti zəifləyir və cəmiyyətdəki sosial gərginlik artır (Nuriyev A.X., 2008: s.54).

Sosial siyasətin mahiyyəti və məzmunu dövlətin sosial proseslərin idarə olunmasına müdaxilə səviyyəsindən də asılıdır. Bu baxımdan inkişaf edən dövlətlərdə mövcud olan dövlət sosial siyasətinin bütün növləri iki qrupa bölünə bilər. Birinci qrup, prinsiplərə əsaslanan sosial siyasətin artıq tam həyata keçirilə bilməyəcəyini düşünür. Bu, əhatə dairəsi məhdud və ilk növbədə passiv və kompensasiya edilə bilən bir sosial siyasətdir. Bu sosial siyasətin nəzəri əsasları liberal bazar iqtisadiyyatı modelinin ideyalarına əsaslanır. Qeyd olunan siyasətin tipik bir nümunəsi ABŞ bazar modelidir.

İkinci qrupa korporativ sosial siyasət deyilir. Burada dövlətin sosial siyasəti xalqa sosial xidmətlərin göstərilməsində mühüm rol oynayır və ixtisaslaşmış qurumlar sistemindən daha təsirli bir vasitə kimi çıxış edir. Bu yenidən bölüşdürmə siyasətidir. Konsepsiyaya görə, belə bir siyasətin formalaşması və inkişafına sosial-demokratik ideologiyanın təsiri böyükdür (Rəhmanov F.P., 2002). Tipik bir nümunə İsveç sosial dövlət modelidir.

İki qrup arasındakı fərq bu amillərin heç birindən deyil, aralarındakı nisbətdən, dövlətin sosial sahədəki və bölgü prosesində iştirakından asılıdır.

Sosial siyasət bütün bazar iqtisadiyyatlarında bu iki qrup arasında inkişaf edir. Skandinaviya ölkələrinin sosial siyasətində ilk növbədə sosial-demokratik bir model olmasına baxmayaraq, bu ölkələrdə dövlətin həyata keçirdiyi sosial siyasətdə liberal ünsürlərdən istifadə edilir. Avropanın əksər ölkələrində sosial bazar iqtisadiyyatı liberal və sosial-demokratik elementlərin qarşılıqlı təsiri altında formalaşır.

Azərbaycan Respublikası da daxil olmaqla bir çox ölkədə yeni iqtisadi və siyasi şərtlərə uyğun sosial sistemlər yaratmadan müxtəlif mülkiyyət formaları və iqtisadi quruluşun, sosial inkişafın və sosial sabitliyin düzgün fəaliyyətini təmin etmək mümkün deyil (Rasimoğlu R., 2012).

Sosial təminatın iqtisadi elementi dövlətin formalaşmasında iştirak edən bütün tərəflərin ortaq məxrəcidir. Sosial siyasətdən əldə olunan əmək haqqı səviyyəsindən və əmək bazarının vəziyyətindən, cəmiyyətin yaşlı üzvlərə münasibətini əks etdirən milli-mənəvi ənənələrdən və vətəndaş cəmiyyətinin sosial əsasını təşkil edən əsas hissədən bəhs etmədən danışmaq mümkün deyil. Sosial siyasətin əsas məqsədi əhalinin adekvat sosial təminatına şərait yaratmaqdır.

Sosial siyasət, keçid dövründə Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının ayrılmaz hissəsidir və o, insanların rifahını və ehtiyaclarının mənbəyini tənzimləməyi və idarə etməyi hədəfləməlidir. Sosial inkişaf hər bir iqtisadi tədbirin təsiri kimi görülür və bu da davamlı yüksək iqtisadi artım konsepsiyasında bir amilə çevrilir. Sosial inkişaf, sosial məsələlər, sosial tədbirlər və proqramlar respublikanın iqtisadi inkişafı, mövcud islahatlardakı ehtiyacları və spesifik sosial müdafiə metodları ilə əldə olunan sosial siyasətin əsas ideyalarıdır (Əliyev A.Ə., Qasımov N.Ə., 2000).

Respublikanın iqtisadi inkişafının sosial nəticələri insanların həyat səviyyəsinin yaxşılaşdırılması, yeni məşğulluq imkanları yaradılması və xüsusilə sosial ehtiyacların ödənilməsi ilə müəyyən edilir. Buna görə də, sosial inkişaf konsepsiyasını makroiqtisadiyyat, mikroiqtisadiyyat və idarəetmənin ayrılmaz hissəsi və standartı olaraq qəbul edirik və iqtisadi inkişaf meyllərini öyrənmək üçün sosial tələb və onun ödəniş meyllərini birləşdiririk (Friedmann J., 2006: s.13).

Mikroiqtisadi və sosial tədqiqatlar sosial siyasət həyata keçirmə obyektləri, sosial idarəetmə institutlarının strukturu və ərazi, idarəvi metod sistemi tərəfindən təmin edilir. Sosial siyasətin hüquqi bazası dövlətin qanunvericiliyi ilə bağlıdır və iqtisadi qanunların hər birinin sosial nəticəsini nizamlamaqla həyata keçirilir. Sosial sahənin ümumi xüsusiyyətləri, xüsusi qanunları və normativ hüquq sistemlərini əks etdirən bir sıra qanunlar vasitəsilə sosial siyasətlərə nəzarət, iqtisadi, təşkilati, hüquqi fəaliyyətin təmin edilməsi həll olunur. Sosial sahədəki qanunlar bu sahələrdəki qanunlarla iqtisadi dəstək sistemi arasındakı əlaqəni tənzimləməyi hədəfləyir. Sosial sahələrin hər birinin maliyyə təməli dövlət büdcəsinin təsdiq

olunması ilə həyata keçirilir. Bazar iqtisadiyyatında sosial inkişaf xüsusi fondlar, yerli (bələdiyyə) büdcələr və əhali hesabına baş verir.

Dövlət büdcəsinin sosial istiqamətliliyi xərclərdə sosial sahəyə ayrılan vəsaitlə müəyyən edilir. Sosial hüquq, hüquqi münasibətlərin və hüquqi əsasların nəticəsi olaraq ədalət prinsiplərini tənzimləmək üçün də istifadə olunur. Bu səbəbdən "Mülki Məcəllə" və "Cinayət Məcəlləsi" iqtisadi və sosial inkişaf meyllərində və proqnozlarında hüquqi və fiziki şəxslərin sahibkarlıq fəaliyyətinin qorunması üçün istifadə olunur. Sosial sahənin tənzimlənməsi milli sosial siyasət və iqtisadiyyatın əsas istiqamətində həyata keçirilir.

Azərbaycan Respublikasının Konstitusiyası (sosial dövlətlə bağlı müddəaları əhatə edir) Azərbaycanın insanların layiqli həyatı və sərbəst inkişafı üçün şərait yaratmağı hədəfləyən siyasi və sosial dövlət olduğunu bəyan edir. Belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan sosial yönümlü bazar iqtisadiyyatları - Almaniya, Fransa, Avstriya, İsveçrə, bütün Avropa Birliyi və Beynəlxalq Əmək Təşkilatı üçün tipik olan yeni bir dövlət quruculuğu fəlsəfəsini qəbul etmişdir. İnsanların hüquqları və ləyaqətinə hörmət etmək, layiqli bir həyat və yaxşı iş şəraiti təmin etmək və iqtisadi sabitliyi artırmaq sosial ədalətin əsas elementləridir (Əsgərov Ə.X., 2006).

İndiki dövrdə bir çox beynəlxalq sosial hüquqlar Konstitusiyanın ayrılmaz bir hissəsi halına gəldiyindən, Azərbaycanda bütün idarəetmə səviyyələri sosial yönümlü davranışı təşviq etmək üçün müvafiq bir dəyişikliyin təməlini qoymuşdur.

Sosial dövlətin ümumi funksiyası aşağıdakılardır:

- Cəmiyyətdə sosial inkişaf konsepsiyalarını və strateji sosial siyasətləri inkişaf etdirmək;
- Sosial rasionallıqla çoxsaylı iqtisadi təməl qurmaq;
- Müvafiq maliyyə və maddi dəstəklə sosial proqramların prioritetlərini müəyyənləşdirmək;
- Sosial siyasətlər və sosial proqramlar üçün düşüncə və informasiya dəstəyi;

- Sosial problemlərin həlli üçün milli sosial idarələr, ictimai və dini təşkilatlar və siyasi partiyalar arasındakı əməkdaşlığı əhatə edən mərkəzi və regional səviyyədə sosial idarəetmə sistemi formalaşdırmaq;
- Milli sosial məsuliyyətə dair sistematik hüquqi tənzimləmə.

Sosial siyasət dövlətin həyata keçirdiyi siyasətin bərabər hüquqlu və azad bir hissəsidir. Bununla yanaşı, sosial siyasət bazar iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilir, çünki dövlətin həyata keçirdiyi iqtisadi siyasət də ən yaxşı sosial siyasətdir.

Sosial status konsepsiyasının bu anlayışı sayəsində sosial gərginliyin qarşısının alınması üçün bir təməl qoyulur və gərginlik azaldıqda sosial quruluş sabitləşə bilər. Sosial sahədəki islahatlar və sosial siyasət ciddi hüquqi təminatların mövcud olduğunu göstərir (Bağırov D.A., Həsənli M.X., 2011). İctimaiyyətlə əlaqələrin tənzimlənməsi qanunun əsas funksiyalarından biridir. Hər bir hüquq sahəsi müəyyən bir ictimai münasibət sahəsini tənzimləyir. Sosial sahədəki qanun - qaydalar və insanların sosial müdafiəsi sosial qanunların köməyi ilə həyata keçirilir. Sosial sahədəki islahatlar sosial qanuna istinad etmək və onun konseptual inkişaf istiqamətini həyata keçirmək üçün tam bir qanunvericilik bazasının yaradılmasına ehtiyac vardır. Bu baza, istehlakçıların sərbəst seçimini, uyğun xidmət keyfiyyətini və maliyyələşməyə çıxışını, səmərəli təşkilatlanmasını təmin etməlidir. Sosial sahədə milli qanunvericilik bazasının formalaşmasında sınaqdan keçmiş beynəlxalq standartların əsas müddəaları nəzərə alınmalıdır.

Sosial hüquqlara nəzarətin əsas aspektləri vətəndaşların sağlamlığının qorunması haqqında qəbul edilmiş “Əmək Qanunu”, “Nikah və Ailə Qanunu”, “Təhsil haqqında”, “Məşğulluq haqqında”, “Əmək pensiyası haqqında”, “ Sosial Sığorta Qanunu” , “Ünvanlı Dövlət Sosial Yardım Qanunu”, “Qaçqın və Məcburi Köçkünlərin Vəziyyəti Qanunu” və digər bir çox qanunla tənzimlənir. Bunu da qeyd etməliyik ki, yalnız sosial sahədəki genişmiqyaslı fəaliyyətlərin qlobal davranışlarını deyil, həm də bu sahədəki fəaliyyətləri tənzimləyən xüsusi qanunları və ya qaydaları tənzimləməyə ehtiyacımız var.

# II FƏSİL. AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Sosial müdafiə və sosial təminatın maliyyə mənbələri

Respublikamızın müstəqilliyinin ilk vaxtlarından başlayaraq sosial təminat və sosial müdafiənin inkişafı istiqamətində mühüm islahatlar həyata keçirilməyə başlanmışdır. Sosial müdafiə sahəsinin maliyyələşdirilməsinin təkmilləşdirilməsi məqsədilə 30 sentyabr 1992-ci ildə Azərbaycan Dövlət Sosial Müdafiə Fondu yaradılmışdır. Fond müstəqil maliyyə hesablaşmasına malik olan bir təşkilat kimi ölkə ərazisində pensiya təminatı, sosial müavinətlər və digər sosial xərclərin maliyyələşdirilməsinə yönəldilən tədbirləri həyata keçirir.

Sosial siyasətin ən mühüm vəzifələrindən biri əhalinin sosial sığortasının və təminatının təkmilləşdirilməsidir.

Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" qanununa əsasən: Sosial sığorta – fiziki şəxslərin itirilmiş əmək haqlarının, o cümlədən digər gəlirlərinin kompensasiya edilməsi və itirilməsinin qarşısının alınmasına yönəlmiş tədbirlər sistemidir.

Sosial sığortanın həyata keçirilməsi 2 formada baş tutur:

- İcbari sosial sığorta - bütün fərdi əmək müqaviləsi əsasında çalışanlar barəsində işə götürənlər tərəfindən hayata keçirilir. Bundan əlavə, qanunda nəzərdə tutulmuş bəzi hallarda başqa şəxslər də icbari sosial sığortaya cəlb oluna bilər.
- Könüllü sosial sığorta – Respublika vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayanlar, bütün müəssisələrdə çalışanlar bu sığortadan istifadə edə bilər.

Azərbaycan Respublikasında sosial sığortanın aşağıdakı prinsipləri vardır (Nağıyev Ə.T., Mürşüdov.R.İ., 2012: s.168):

- Dövlətin sosial sığortanın müntəzəmliyinə dair təminat verməsi;
- Sosial sığortanın ümumiliyi (hamı üçün əlçatan olması);

- Çalışanlara əmək qabiliyyətinin itirildiyi bütün hallarda təminat verilməsi;
- Sığorta subyektlərinə bərabər hüququn verilməsi;
- Sosial sığortanın icbariliyi;
- Bütün ictimai təşkilatların icbarı sosial sığortanın idarə olunmasında iştirakı;

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən qeyd olunur ki, aşağıdakı sosial sığorta hadisələrinin baş verməsi ilə əlaqədar olaraq sığortalı, sığorta təşkilatından sığorta ödənişləri almaq hüququna malikdir:

**Sxem 1: Sığorta ödənişi ilə bağlı hüququ olan şəxslərin təsnifatı.**




**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

Icbari sığorta olunanlara vəsaitlərin düzgün və vaxtında ödənilməsi üçün sığortalılar uçota alınmalıdır. Mövcud qanunvericiliyə əsasən işəgötürənlər təsərrüfat müəssisəsi kimi qeydiyyata alındıqdan, təsərrüfat müəssisəsi olmayan işəgötürənlər isə işçilərlə fərdi əmək müqaviləsini bağladıqdan ən geci bir ay müddətində işçilərin sayı barədə sığorta edən təşkilata məlumat verməlidirlər.

Bu prosesdə sığortaçı təşkilatların müəyyən hüquqları vardır: işəgötürənlərdən işçilərin icbari sosıal sığorta olunmasını tələb etmək, sığorta olunanlardan sığorta ödənişlərinin olunması ilə bağlı arayış almaq, sığorta etdirənlərin icbari sosial sığorta qaydalarına riayət etməsinə nəzarət etmək, qanunda nəzərdə tutulan digər hüquqları həyata keçirtmək.

Sosial sığorta prosesində Sığorta etdirənlərin də qanunla qorunan hüquqları müəyyən edilmişdir. Bunlara: sosial sığortanın hər bir formasında iştirak etmək, sosial sığorta etdirmək üçün istədiyi sığorta təşkilatını azad qaydada seçmək və sığortaçı təşkilatdan sığorta qaydalarına riayət etməsini tələb etmək daxildir (Nağıyev Ə.T., Mürşüdov.R.İ., 2012).

İcbari Dövlət sosial sığorta haqlarının müəyyən edilməsi Azərbaycan Respublikası “Sosial sığorta haqqında” qanununa və digər normativ-hüquqi aktllara əasaən həyata keçirilir.

Sosial sığorta və sosial təminat Dövlətin sosial müdafiə fondunun əsas tərkib hissələrindən biridir. Bu məqsədlə dövlət büdcəsindən hər il yüksək məbləğdə vəsait sərf olunur ki, bu da ölkənin sosial müdafiə sisteminin güclənməsini artırır.

Ötən illərdə olduğu kimi sosial təminatın maliyyə mənbələri haqqında qanun layihəsi VI maddədən ibarətdir. Qanun layihəsinin 1-ci maddəsinə əsasən Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il üçün gəlir və xərclərinin 5146,04 milyon manat dəyərində olduğu qeyd olunmuşdur.

Ümumiyyətlə, qanun layihəsinin 5-ci maddəsində, büdcə ili boyunca dövlət büdcəsindən maliyyələşən təşkilat və müəssisələr tərəfindən təmin edilən məcburi dövlət sosial sığorta haqları vəsaitləri tam məbləğdə fonda daxil olmadıqda, fondun büdcəsinə dövlət büdcəsinin xərc öhdəliklərini təmin etmək məqsədi ilə öhdəliklərin

maliyyələşdirilməsinə büdcədən ayrılan vəsaitin miqdarı sosial sığorta haqqları üçün əvvəlcədən planlaşdırılmış məbləğ ilə faktiki olaraq hesablanmş məbləğ arasındakı fərq qədər artırılır, artıq vəsait daxil olduqda isə planlaşdırılmış və faktiki məbləğin fərqi qədər azaldılır.

Nəzarət baxımından ən əhəmiyyətli iş layihənin gəlir və xərc bölgüsünün həyata keçirilməsidir. Fondun büdcəsi və koordinasiya baxımından, eyni zamanda paralel nəzarətin təşkili, Fond büdcəsinin dövlət büdcəsi kimi Milli Məclisə təqdim edilməsi və Milli Məclisdə baxılmasıdır.

"Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunu layihəsi ilə birlikdə təqdim olunan məlumata görə, büdcə təsnifatının 2019-cu il üçün iqtisadi büdcə xərclərində əmək haqqı ödənişləri 4120,8 milyon manat olmuş, 2020-ci ildə isə bu göstərici 5303,7 milyon manata çatmışdır. Əsas etibarı ilə, 2021-ci ildə bu dəyərin 5289,6 milyon manat olacağı gözlənilir.

**Qrafik 3: İqtisadi büdcə xərclərində əmək haqqı ödənişlərinin illər üzrə dinamikası.**




**Mənbə:** http://sai.gov.az/files/DSMF_yekun.pdf – DSMF statistik məlumatları 2021.

Büdcə xərcləri iqtisadi təsnifatının "Əmək haqqı ayırmaları" alt bölməsi üzrə 2020-ci ildə Fonda büdcə təşkilatları üçün ayırmaların məbləği 1161,1 milyon manat

olmuş, 2021-ci ildə isə bu göstəricinin 1131,1 miyon manat olacağı proqnozlaşdırılır.

Layihədə dövlət büdcəsi öhdəliklərini maliyyələşdirmək üçün Fondun büdcəsini tarazlaşdırmaq məqsədiylə ayrılan 1631,5 milyon manat, Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsi ilə birlikdə göstərilən məlumatlarda "Sosial müdafiə və sosial təminat" öhdəliklərinin "Sosial müdafiə" köməkci alt bölməsində Fonda büdcədən öhdəliklərin maliyyələşdirilməsi məqsdiylə ayrılmış vəsaitin miqdarına bərabərdir.

Qanun layihəsinə əsasən deyə bilərik ki, Fondun gəlirləri 2021-ci ildə də keçən illərdə olduğu kimi yüksək artım sürətinə malik olacaqdır.

**Şəkil 1: 2019-2021-ci illər ərzində fond gəlirlərinin mənbələr üzrə quruluşu (milyon manatla).**

| Göstəricilər | | 2019 (icra) | 2020 dür. proqnoz/ gözlənilən icra | 2021 (layihə) | Müqayisə (+;-) | |
|---|---|---|---|---|---|---|
| | | | | | 2019-cu illə | 2020-ci illə |
| **GƏLİRLƏR, cəmi** | | **4126,5** | **4784,7** | **5146,0** | **1019,5** | **361,3** |
| **1** | **Məcburi dövlət sosial sığorta haqları** | **2921,6** | **3392,6** | **3502,5** | **580,9** | **109,9** |
| 1.1. | Büdcədən maliyyələşən təşkilatlar üzrə | 1038,6 | 1405,0 | 1345,5 | 306,9 | -59,5 |
| 1.1.1 | Büdcədən maliyyələşən təşkilatlardan daxilolmalar | 914,0 | 1236,4 | 1184,0 | 270,0 | -52,4 |
| 1.1.2 | Büdcədən maliyyələşən təşkilatlarda işləyənlərdən daxilolmalar | 124,6 | **168,6** | 161,5 | 36,9 | -7,1 |
| 1.2 | Digər sığortaedənlər | 1883,0 | 1987,6 | 2157,0 | 274,0 | 169,4 |
| 1.2.1 | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 68,2 | 80,0 | 60,0 | -8,2 | -20,0 |
| **2** | **Sair gəlirlər** | **22,2** | **6,0** | **12,0** | **-10,2** | 6,0 |
| 2.1 | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | | 2,0 | 2,0 | **2,0** | 0 |
| **3** | **Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsindən ayırmalar (transfert)** | **1182,7** | **1188,9** | **1631,5** | **448,8** | **442,6** |

**Mənbə:** http://sai.gov.az/files/DSMF_yekun.pdf – DSMF statistik məlumatları 2021.

Əvvəlki illərdə olduğu kimi, 2021-ci ildə də Fondun gəlirləri məcburi olan dövlət sosial sığorta haqları, digər gəlirlər və Fondun büdcəsini tarazlaşdırmaq məqsədilə dövlət büdcəsi öhdəliklərini maliyyələşdirmək üçün büdcədən ayrılan vəsaitlərdən ibarət olacaqdır.

Qanun layihəsinə əsasən, 2021-ci ildə Fondun büdcəsini tarazlaşdırmaq üçün dövlət büdcəsindən öhdəliklərin maliyyələşdirilməsinə 1631,5 milyon manat

ayrılacaqdır. Bu da Fondun ümumi gəlirlərinin 31,7 faizini təşkil etməklə, 2019-cu ilin icra göstəricininə nəzərən 448,8 milyon manat, 2020-ci ilə nəzərən 442,6 milyon manat yüksəkdir.

Qanun layihəsinə əsasən, 2021-ci ildə Fondun xərclərinin 5146,03 milyon manat olacağı planlaşdırılmışdır ki, bu da 2019-cu il üzrə icra göstəricilərindən 1194,8 milyon manat və ya, 30,2%, 2020-ci il üzrə proqnoz göstəricilərindən isə 361,31 milyon manat və yaxud 7,6% çoxdur.

**Şəkil 2: Fondun müxtəlif istiqamətlər üzrə xərcləri (milyon manatla).**

| Göstəricilər | | 2019 (icra) | 2020-ci il | | 2021 | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | proqnoz | xüsusi çəki, | məbləğ | xüsusi çəki,% | 2019-ci ilin icra göstəricilərinə nisbətən | | 2020-cu ilin proqnoz göstəricilərinə nisbətən | |
| | | | | | | | +;- | % | +;- | % |
| **XƏRCLƏR, cəmi** | | **3951,23** | **4784,69** | 100,0 | **5146,03** | 100,0 | 1194,80 | 130,2 | 361,34 | 107,6 |
| 1 | **Əhaliyə ödənişlər, cəmi** | **3843,14** | **4644,76** | 97,1 | **5004,79** | 97,3 | 1161,65 | 130,2 | 360,03 | 107,8 |
| 1.1. | Əmək pensiyalarının ödənilməsi | 3747,48 | 4543,31 | 95,0 | **4880,04** | 94,8 | 1132,56 | 130,2 | 336,73 | 107,4 |
| 1.2. | MDSSH hesabına müavinətlərin ödənilməsi | 95,66 | 101,45 | 2,1 | 124,75 | 2,5 | 29,09 | 130,4 | 23,30 | 123,0 |
| 2 | AHİK xətti ilə sığortaolunanların sanatoriya- kurort müalicəsi və sağlamlaşdırma tədb-nin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdirilən xərclər, cəmi | **20,00** | **20,47** | 0,4 | **20,50** | 0,4 | 0,50 | 102,5 | 0,03 | 100,1 |
| 3 | DOST Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | **21,43** | **33,00** | 0,7 | **32,58** | 0,6 | 11,15 | 152 | -0,42 | 98,7 |
| 4 | Fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri | **49,54** | **84,80** | 1,8 | **87,50** | 1,7 | 37,96 | 176,6 | 2,70 | 103,2 |

**Mənbə:** http://sai.gov.az/files/DSMF_yekun.pdf – DSMF statistik məlumatları 2021.

Belə ki, 2021-ci ildə Fondun xərclərinə əmək pensiyaları və məcburi dövlət sosial sığortası müavinətləri, AHİK tərəfindən maliyyələşdirilən sanatoriya yaxud kurort müalicəsi və AHİK yoluyla sığortalıların reabilitasiyası, əhaliyə pensiyaların və müavinətlərin çatdırılması, bank əməliyyatları üzrə xidmət haqqları, o cümlədən Fondun mərkəzi aparatının və yerli orqanların, həmçinin "DOST" Agentliyinin sosial müdafiə xidmətlərinin təşkili üzrə xərcləri və digər xərclər daxildir.

2021-ci ildə Fondun digər xərcləri 660.000 manat səviyyəsində proqnozlaşdırılır. Bu məbləğ beynəlxalq təşkilatlara üzvlük haqları ilə və Azərbaycan Respublikası Hökumətiylə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 23 sentyabr 2004-cü ildə imzalanmış və Prezidentin 11 noyabr 2004-cü il tarixli 518 saylı Fərmanıyla təsdiqlənmiş "İnkişaf Krediti Sazişi" nə uyğun olaraq ödənilir.

Qanun layihəsində əvvəlki illərdə olduğu kimi, Beynəlxalq Sosial Təminat Dərnəyi, Pensiya və Sosial Fondlar da daxil olmaqla beynəlxalq təşkilatlara üzvlük haqlarının, Fond xərclərinin 60,0 min manatı məbləğində ödənilməsi nəzərdə tutulur.

## 2.2. Təhsilin inkişaf etdirilməsində maliyyə təminatı

Respublikamızda təhsilin inkişafı və təkmilləşdirilməsi dövlətin həyata keçirdiyi sosial siyasətin prioritet planlarından biri kimi daima diqqət mərkəzində olmuşdur. Təhsilə artan diqqət ölkə başçısı İlham Əliyev tərəfindən deyilmiş "maddi dəyərlərimizi və iqtisadi potensialımızı insan resurslarına yönəltməliyik" fikriylə birbaşa əlaqədardır.

Azərbaycanın sosial, habelə iqtisadi inkişafının bütün sahələrində olduğu kimi, təhsilin inkişafında da əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. 19 iyun 2009-cu ildə ölkədə vətəndaşların təhsil almaq hüququnun təmin edilməsi məqsədilə təhsil sahəsində dövlətin həyata keçirdiyi siyasətin əsas qayda və prinsiplərini, təhsil sisteminin tənzimlənməsinin ümumi şərtlərini müəyyənləşdirən "Təhsil haqqında" Qanun layihəsi qəbul edilmişdir.

Təhsilin maddi-texniki bazasının inkişaf etdirilməsi və təhsildə aparılan islahatların nəticəsi kimi əhəmiyyətli dəyişikliklər baş vermiş, təhsil səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə bir çox məqsədyönlü tədbirlər görülmüşdür.

Təhsil sektorunda aparılan islahatların nəticəsi kimi əhalinin təhsil səviyyəsi günü – gündən artmaqdadır və bu gün 16 yaşdan yuxarı hər 1000 nəfərdən 780 nəfəri ali və tam orta təhsillidir. 2019-2020 - ci illərdə 16 və 16 -dan yuxarı yaşdakı əhalinin savadlılıq səviyyəsi 99,8%-ə çatmışdır.

2019-2020 – ci il dərs ilinin əvvələrində ölkədə fəaliyyət göstərən 1684 dövlət və 156 qeyri-dövlət məktəbəqədər təhsil müəssisələrində 128.826 uşaq və ya müvafiq yaşdakı uşaqların yüzdə 15.8-i təhsil almışdır. Məktəbəqədər təhsil müəssisələrinin 97% -i Təhsil Nazirliyi sisteminə tabedir və onların 24% -i Bakıda yerləşir.

2019-2020 tədris ilinin əvvəlində ölkənin 4433 dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisəsində 1,6 milyon şagird təhsil almışdır. 2020-ci ildə ölkədəki ali təhsil müəssisələrinə 42700 tələbə yaxud əvvəlki ilə nisbətən 1,7% daha çox tələbə qəbul edilmişdir.

Hazırda Respublikamızda 56000 nəfər tələbənin təhsil aldığı 59 orta ixtisas ümumtəhsil müəssisəsi və 187000 tələbənin təhsil aldığı 40 dövlət və 12 qeyri-dövlət olmaqla 52 ali təhsil müəssisəsi fəaliyyət göstərir.

Qloballaşmanın, iqtisadiyyatın dünya iqtisadi sisteminin ayrılmaz hissəsinə çevrilməsinin fəal iştirakçılarından biri olan Azərbaycanda da təhsil sisteminin yeni tələblər əsasında qurulmasına və müasir strateji planların hazırlanmasına ehtiyac yaranmışdır. Bu səbəbdən ölkəmizdə təhsilin yeni Konsepsiyasının hazırlanması və hayata keçirilməsi dövlətin mühüm vəzifələrindən biri olaraq müəyyən edilmişdir.

Azərbaycanda dövlətin təhsilə göstərdiyi qayğı ildən-ilə artmaqdadır. Bunun əsas səbəbi təhsilə qoyulan investisiyaların ölkənin ahəngdar inkişafı, təhsil işçilərinin və ümumilikdə cəmiyyətdə daha intellektual fərdlərin yetişdirilməsi üçün xüsusi əhəmiyət daşımasıdır.

Azərbaycanda elm və təhsilin maddi-texniki bazası, habelə insan resurslarının formalaşması XX əsrə təsadüf edir (Muradov A.N., 2006: s.100). 1970-1980-ci illər ərzində Ümummilli Lider Heydər Əliyevin xüsusi qayğısı ilə gənclərin SSRİ-nin müxtəlif universitetlərinə kütləvi şəkildə göndərilməsi respublikanın yüksək ixtisaslı mütəxəssislərlə təminatı cəhətdən lider mövqe tutmağa imkan verdi (Muradov A.N., 2006: s.101).

Bildiyimiz kimi, müasir dövrümüzdə elmi və texnoloji tərəqqi sürətlə irəliləyir. Sürətli elmi və texnoloji tərəqqi müasir xidmət sektorlarında çalışan işçilərdən yüksək səviyyədə peşə təhsili və mədəniyyətə sahib olmağı tələb edir (Hasanov K.A., 2020: s.244).

Ölkəmizdə təhsilin inkişafı və əhalinin təhsil hüququnun həyata keçirilməsi ali qanunvericiliklə müəyyənləşdirilir. Respublikanın Konstitusiyası vətəndaşların təhsil almaq hüququnu təmin edir. Konstitusıyanın 42-ci maddəsinə əsasən qeyd olunduğu üzrə, ölkə vətəndaşlarının hər birinin təhsil almaq hüququ vardır və ölkədə icbari orta təhsil dövlət tərəfindən təmin edilir.

Son illərdə Azərbaycanda təhsilin inkişafına, maddi-texniki bazasının gücləndirilməsi, məktəblərin tikintisi və əsaslı təmirinə, yeni məktəb binalarının tikilməsinə (Xüsusilə, Qobu - yeni yaşayış mərkəzində) diqqət yetirilir. Elmi-texniki tərəqqinin sürətlənməsi və bunun əsasında istehsalda ictimai əməyin məhsuldarlığının və milli gəlirin yüksəlməsi işçilərin xüsusi ixtisas səviyyəsi və peşə hazırlığı səviyyəsi ilə müəyyən edilir. Bu səbəblə də, dövlət vahid təhsil və peşə təhsili sisteminin yaradılmasına xüsusi diqqət yetirir.

Azərbaycan Respublikasının ölkə başıçısı İlham Əliyevin 24-oktyabr 2013 - cü ildə imzaladığı sərəncamıyla “Azərbaycan Respublikasında Təhsilin İnkişafına dair Dövlət Strategiyası” təsdiq olunmuşdur. Strategiyaya əsasən ölkəmizdə təhsilin yeni keyfiyyət səviyyəsinə keçməsi üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşdur. Bu strategiya planlarından hal – hazırda da geniş istifadə olunur.

Beləliklə, sənədin əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək, təhsilin idarəçilik sistemini yenidən qurmaq, insan resurslarının inkişafı, müəllimlərin

nüfuzunu daha da artırmaq, müəllimlərin fəaliyyətini stimullaşdırmaq, müasir düşüncəli bir Azərbaycan vətəndaşı yetişdirməkdir. Dövlət strategiyası, həmçinin təhsil infrastrukturunun Azərbaycanın uzunmüddətli inkişaf konsepsiyasına uyğun olaraq yenidən qurulmasına şərait yaratmış, ölkədə bilik əsaslı iqtisadiyyatın və informasiya cəmiyyətinin formalaşmasını və davamlı olaraq inkişafını təmin etmişdir (Hasanov K.A., 2020: s.246).

Son illərdə ölkədə təhsilin inkişafı üçün mühüm tədbirlər görülmüş, maddi-texniki baza daha da gücləndirilmişdir. Son 16 ildə ölkədə 3200-dən çox məktəb binası tikilib və əsaslı təmir edilmişdir.

"Azərbaycan Respublikası Təhsilinin İnkişafına dair Dövlət Strategiyası" nın həyata keçirilməsi haqqında Tədbirlər Plannın təsdiq edilməsi barədə Prezidentin 19 yanvar 2015-ci ildə imzaladığı Sərəncam təhsil sisteminin inkişafında əsaslı dəyişiklik yaratdı.

Ölkəmizin təhsil sistemində yenidənqurmanın həyata keçirilməsi, onun maddi-texniki bazasının gücləndirilməsi, təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi və o cümlədən ölkənin mənəvi dəyərlərinə əsaslanan yeni məzmun qazanması və dünya standartlarına uyğunlaşdırılması üçün əsaslı tədbirlər həyata keçirilir.

Hazırda təhsilin ən vacib məsələlərini həll etmək üçün 16 inkişaf proqramı həyata keçirilir. Ümummilli liderin strateji kursunu uğurla davam etdirən Prezident İlham Əliyev dövlətin əsas vəzifələrindən biri kimi təhsilin inkişafına mühüm diqqət göstərir. H.Əliyev Fondunun təhsil sahəsindəki fəaliyyəti hərtərəfli və müxtəlifliyiylə daima seçilir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinin təqdimatına həsr olunmuş iclasda çıxış edən Fondun prezidenti Mehriban Əliyeva qeyd etmişdir:

"Müasir dünyada istənilən ölkənin inkişafı və dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir."

Statistik nəticələr göstərir ki, təhsilin inkişafı üçün dövlət büdcəsindən ayrılan vəsailərin miqdarı ilbəil artır. Təhsilin maliyyələşdirilməsində büdcə rolunun

artırılması dinamikası aşağıda göstərilən qrafikdəki məlumatlar əsasında xarakterizə edilə bilər.

**Qrafik 4: Təhsilin inkişafına dair büdcə xərclərinin dinamikası.**




**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən də göründüyü kimi, təhsilin maliyyələşdirilməsində büdcədən ayrılan vəsaitin həcmi hər il artmışdır. Qrafikdə qeyd olunur ki, 2017 – ci ildə təhsilin inkişafında təhsil xərci 1791.2 milyon manat, 2018 – ci ildə isə 2001.9 milyon manat olmuşdur. 2019 – cu ildə isə dövlət büdcə xərclərinin cəmi artaraq təhsilə ayrılan investisiyalar da xeyli artmışdır. 2020 – ci ilin birinci rübündə bu göstərici 3034.7 milyon manata çatmışdır. Yekun nəticəmiz isə budur ki, 2017 – ci ildən 2020 – ci ilə qədər təhsil sahəsində büdcə balansı artmış və bu vasitəylə bu sahəyə qoyulan xərclər də artım göstərmişdir.

Ümumtəhsil sahəsində həyata keçirilən islahatların mühüm məqsədlərinə uyğun olaraq, düzgün və təsirli təhsil mühitini formalaşdırmaq, təhsil sisteminin keyfiyyətini artırmaq, məktəb rəhbərliyinin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində fəaliyyətlər 2020-ci ildə də uğurla davam etdirilmişdir.

Azərbaycanda təhsil sistemi aşağıda qeyd etdiyimiz mərhələləri əhatə edir:

**Sxem 2: Azərbaycanda təhsil sisteminin mərhələləri.**




**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

Uşaqların ümumi təhsiliylə əlaqəli xərclər təhsil xərclərinin əsas hissəsidir. Buraya məktəbəqədər təhsil xərcləri (təhsil müəssisələri, ibtidai və orta məktəblər, liseylər, internat məktəbləri, əlil uşaqlar üçün məktəblər (xüsusi qayğı), uşaq evləri, məktəbdənkənar təhsil, metodik iş şöbələri aiddir. Ümumi təhsil məktəblərində xərclər smetasına əsasən aşağıda qeyd etdiyimiz xərc maddələri planlaşdırılır:

**Sxem 3: Ümumi təhsil məktəblərində xərclər smetası.**




**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

Təhsil müəssisələrinin saxlanması xərclərinin planlaşdırılması üçün ən əsas göstəricilərə onlarda təhsil alan tələbələrin, müəssisələrdəki sinif otaqlarının orta illik sayı daxildir.

Təhsildə görülən tədbirlər çərçivəsində müasir bir maliyyələşdirmə mexanizmi - adambaşına maliyyələşmə prinsipinə keçid mühüm istiqamətlərdən biri kimi nəzərdə tutulur. Buna görə büdcədə maliyyələşdirmə miqdarını təyin etmək üçün məktəblərdə orta illik şagird sayının düzgün hesablanması olduqca vacibdir.

Bununla yanaşı, orta məktəblərin saxlanması və fəaliyyət xərclərinin planlaşdırılması üçün ilkin şərtlərdən biri də sinif qruplarının sayını və ümumilikdə məktəbdəki siniflərin sayını müəyyənləşdirməkdir, çünki məktəblərin saxlanması və təmir kimi bir sıra xərclər məhz bu göstəriciyə əsasən birbaşa hesablanır.

## 2.3. Səhiyyənin inkişaf strategiyasında dövlət büdcəsinin mahiyyəti

Azərbaycanın sosial-iqtisadi inkişafının ən əhəmiyyətli sahələrindən biri olan səhiyyənin inkişaf etdirilməsi və əhalinin sağlamlığının təmin olunması dövlətin daim diqqət mərkəzində olan məsələlərdən biridir. Səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin mühüm istiqaməti olmaqla hər il səhiyyənin maliyyələşdirilməsi və səhiyyənin maddi təminatının gücləndirilməsi üçün böyük miqdarda pul ayrılır.

Səhiyyə xidmətinin inkişafı və əhaliyə tibbi xidmətin gücləndirilməsi əhalinin sağlamlığını qorumaq üçün konstitusiya hüququnun təsdiqidir. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsi vətəndaşların hər növ tibbi yardım almaq və sağlamlıqlarını qorumaq hüquqlarını ifadə edir:

- Hər kəsin sağlamlığı qorumaq, habelə tibbi yardım almaq hüququ var;
- Dövlət müxtəlif mülkiyyət formaları əsasında fəaliyyət göstərən bütün səhiyyə növlərinin inkişaf etməsi üçün zəruri tədbirlər görür, sanitariiya,

epidemioloji sağlamlığını təmin edir, müxtəlif növ tibbi sığortalar üçün imkanlar yaradır;

İcbari tibbi sığorta səhiyyə maliyyələşdirilməsinin təkmilləşdirilmiş və effektiv bir yolu hesab edilə bilər. Beləliklə, İTS (İcbari Tibbi Sığorta) səhiyyə xidmətlərini sistematik, səmərəli və bərabər şəkildə təmin edir, səhiyyə infrastrukturunu yaxşılaşdırır, xidmət keyfiyyətini artırır və beləliklə insan kapitalının yaşayış şəraitinə müsbət təsir göstərir.

Bundan əlavə, İTS iş prinsiplərinə aşağıdakılar daxildir (http://iqtisadiislahat.org/columns/icbari_tibbi_sigorta_nedir_ve_ehemiyyeti_neden_ibaretdir-108):

1. Şəffaflıq - tam elektron registrasiya sistemi,
2. Rahatlıq - qeydiyyat zamanı ən yaxın və ən uyğun tibbi xidmətlərin göstərilməsi,
3. Peşəkarlıq - tibbi avadanlıq və tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması,
4. Ədalət - sistemli növbə prinsipi, ehtiyacı olan xəstələrin doğru həkimlərə yönləndirilməsi, xidmətlərin tələb və təklif meyarlarına uyğun düzgün paylanması, sağlam rəqabət.

Bu prinsiplər üzrə tədbirlərin təşkili vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətini artıracaqdır. Təsadüfi deyil ki, 2016 - 2019 -cu illərdə həyata keçirilən 2000 xidmətlə təxminən 400.000 insanın iştirak etdiyi İTS pilot layihəsi həm həkimlər, həm də vətəndaşlar tərəfindən müsbət qiymətləndirilmişdir.

- İnsan həyat və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanuna əsasən müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

Hazırda ölkəmizdə səhiyyənin inkişafına göstərilən dövlət qayğısı bir sıra prinsiplərə əsaslanır. Bu prinsiplərə aşağıdakılar aiddir:

- Əhaliyə pulsuz və yüksək keyfiyyətli tibb xidmətləri göstərmək;

- Səhiyyəni dövlət büdcəsi və büdcədənkənar fondlar hesabına inkişaf etdirmək;
- Səhiyyə və tibbi xidmətləri dünya standartları səviyyəsinə çatdırmaq və elmi-texniki tərəqqi əsasında yenidən qurmaq.

Ölkədə səhiyyə xidmətinin inkişafını və əhaliyə göstərilən tibbi xidmət növlərini əks etdirən göstəricilər sistemi müəyyən xüsusiyyətlərinə görə təsnif edilir. Buna görə, səhiyyə və tibbi müdaxilələri düzgün planlaşdırmaq və maliyyələşdirmək üçün müəyyən qruplara bölünmə olur. Bunlar aşağıdakılardır (Rəhmanov F.P., 2002: s.151):

Birincisi - müalicə və profilaktika şöbələri və təşkilatları, xəstəxanalar, dispanserlər, tibb müəssisələri, təcili yardım stansiyaları və mərkəzləri, qan köçürmə stansiyaları, yeniyetmələrə xidmət göstərən sanatoriya və müəssisələr və s.

İkincisi - sanitar-profilaktik şöbələr və tədbirlər sistemi. Bu tip səhiyyə şöbələrinə sanitar epidemioloji stansiyalar, dezinfeksiya stansiyaları, ölkədəki epidemiya nəzarəti tədbirləri və sanitar xidmət təşkilatları daxildir.

Üçüncüsü - digər sağlamlıq şöbələridir. Bunlara müharibə əlilləri üçün tibbi mərkəz və xidmətlər, sanatoriyalar və s. daxildir.

Bazar iqtisadiyyatına keçid və yeni iqtisadi münasibətlər şəraitində pullu xidmət göstərən klinikalar və müalicə müəssisələri, kurort-sanatoriya, apteklər şəbəkəsi genişlənir (Əliyev A.Ə., Qasımov N.Ə., 2000).

Azərbaycan Respublikasında səhiyyə və tibb xidmətləri əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Ölkənin səhiyyə sistemində xəstəxanaların, dispanserlərin və digər tibb müəssisələrinin payı böyükdür. Səhiyyə büdcəsinin demək olar ki, 80 % - i bu müalicə şəbəkəsinə ayırılır. Səhiyyə və tibb xidmətlərinin əsas inkişaf göstəricilərinə ilk növbədə stasionar müəssisələr, yəni xəstəxanalar, onlarda yataqların sayı, həkim vəzifələrinin, orta və kiçik tibb işçilərinin sayı, klinikaların sayı və digər səhiyyə müəssisələri və s. daxildir.

Son illər Azərbaycan Respublikasında səhiyyə sisteminin inkişaf parametrlərini əks etdirən vacib göstəricilər aşağıdakı statistik məlumatlar əsasında

səciyyələndirilə bilər. Sağlamlığın inkişaf göstəricilərinə müxtəlif ixtisaslardan olan həkimlərin ümumi sayı, 10.000 əhaliyə düşən həkimlərin sayı, orta və kiçik tibb işçilərinin sayı, xəstəxanaların sayı, xəstəxana yataqlarının sayı, klinikalar və dispanserlərin sayı və və s. aid edilir.

**Qrafik 5: Azərbaycanda səhiyyənin inkişaf göstəriciləri.**




**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən məlum olur ki, ölkəmizdə bütün ixtisaslar üzrə həkim sayı 2018-ci ildə 31,9 min, 2019-cu ildə 32,5 min, 2020-ci ildə 31,8 min nəfər olmuşdur.

Müxtəlif ölkələrdə səhiyyə xidmətinin inkişafının vacib göstəricilərindən biri 10.000 nəfərə düşən həkim sayının olmasıdır. Hazırda Azərbaycanda hər 10 min nəfərə düşən həkim sayı 32 nəfərdir. Bu göstərici 2018-ci ilə nisbətən 1.8% azalıb.

2019-cu ildə xəstəxana sayı 563 və ya 2018-ci illə müqayisədə 3 vahid az olmuşdur. Tibbi müəssisələrin və xəstəxana çarpayı sayının azalması səhiyyə islahatları və mərkəzləşdirmənin həyata keçirilməsindən qaynaqlanır. Lakin bütün dünyada COVID-19 pandemiyasının geniş vüsət alması ölkəmizə də təsirini

göstərmiş, 2020-ci ildə yeni açılan xəstəxana və klinikalar ilə birlikdə səhiyyə müəssisələrinin sayı 570-ə yüksəlmişdir.

Azərbaycanda vətəndaşların sağlamlıq vəziyyətinin əsas göstəricilərindən biri xəstəlik hallarıdır. Qeydə alınan xəstəliklər arasında tənəffüs sistemi xəstəlikləri, həzm sistemi xəstəlikləri, sinir sistemi və duyğu orqanları xəstəlikləri, yoluxucu və parazitar xəstəliklər üstünlük təşkil edir.

Ölkədə poliklinikaların sayı 2018 - ci ildə 1737, 2019-cu ildə 1741, 2020-ci ildə 1726 olmuşdur. Qadın klinikaları, uşaq dispanserləri və poliklinikalarının sayı 131-ə çatmışdır ki, bu da 2018-ci illə eynidir. 2020-ci ildə hamilə qadınlar üçün yataq sayı 4.4 min olmuşdur.

Azərbaycanda səhiyyənin inkişafına və tibbi xidmətin yaxşılaşdırılmasına dövlət qayğısı ildən-ilə artır. Bu məqsədlə büdcə hesabına diaqnostik müayinələr və müalicə metodları paketi, habelə zəruri dərman və tibbi ləvazimatların siyahısı hazırlanmışdır.

Bakının əksər xəstəxanaları lazımi avadanlıq, dərman və tibbi ləvazimatlarla tam təchiz olunmuşdur. Hazırda bütün xəstələr poliklinikalarda olduğu kimi bu xəstəxanalarda da pulsuz müayinə ala bilirlər.

Büdcə Azərbaycanda səhiyyənin maliyyələşdirilməsində əsas rol oynayır. Təxmini xərcləri düzgün planlaşdırmaq və istifadə etmək üçün büdcə xərc təsnifatına görə qruplaşdırılmalıdır (Nuriyev A.X., 2008).

Respublikanın əhalisinə səhiyyə xidmətinin yaxşılaşdırılması üçün şəhər və rayon səhiyyə şöbələrində struktur dəyişiklikləri edilmişdir. 2019 - 2020 -ci illərdə büdcədənkənar maliyyə hesabına 300-ə yaxın tibb müəssisəsi əsaslı şəkildə təmir edilmiş və tibbi avadanlıqlarla təchiz edilmişdir. Dünya Bankının krediti hesabına bölgələrdəki tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilmişdir.

Dövlət büdcəsi səhiyyənin inkişafında, tibbi xidmətin yaxşılaşdırılmasında, tibb elminin inkişafında xüsusi rol oynayır. Dövlətin sosial vəzifələri arasında vacib olan tibbi xidmətlərin və əhalinin sağlamlığının qorunması tədbirlərinin həyata

keçirilməsi, dövlətin maddi təminatı sanitar və profilaktik tədbirlərin həyata keçirilməsində əvəzsiz rola malikdir.

Səhiyyə xərcləri müəssisələrin smetasına əsasən planlaşdırılır. Xərc smetalarının planlaşdırılması və müvafiq maliyyələşdirmə büdcə xərcləri təsnifatına uyğun olaraq həyata keçirilir.

Səhiyyə müəssisələrinin xərclər smetası onların fərdi xüsusiyyətlərinə əsaslanır. Xərclər smetası, bütün idarə və təşkilatların saxlanılması və təyinatı üzrə rüblük bölüşdürülməsi üçün büdcədən ayrılan vəsaitin illik miqdarını əks etdirən maliyyə planlaşdırma sənədidir (Əliyev A.Ə., Qasımov N.Ə., 2000).

Büdcə təsnifatına görə səhiyyə şöbələri və müəssisələri aşağıdakı kimi qruplaşdırılır.

1. “Xəstəxanalar” bölməsinə aşağıdakı xərclər daxildir: xəstəxanalar və onların struktur bölmələri, çarpayılar şəbəkəsi olan mərkəz və dispanserlər, balneoloji müalicə mərkəzləri, müharibə əlilləri üçün xəstəxanalar, tədqiqat institutları və gəmi həkimləri və su nəqliyyatında tibbi sanitariya vahidləri nəzdində klinikaların saxlanılması.

2. “Poliklinikalar və ambulatoriya klinikaları” bölməsinə şəhər, qəsəbə və kənd yerlərində yerləşən müstəqil poliklinikaların, diaqnostika mərkəzlərinin və dispanserlərin saxlanılması xərcləri daxildir.

3. “Feldşer-mama məntəqələri” bəndində şəhərlərdə, qəsəbələrdə və kəndlərdə yerləşən mama məntəqələrinin istismar xərcləri nəzərdə tutulur.

4. “Təcili tibbi yardım stansiyaları” bəndi yalnız təcili tibbi yardım stansiyalarının saxlanılması xərclərinə aiddir.

5. “Qan köçürmə stansiyaları” bəndinə müstəqil transfüzyon stansiyalarının saxlanılması üçün xərclər daxildir.

6. “Tüberküloz üçün sanatoriyalar” paraqrafına, birinci bənddə əks olunan vərəm sanatoriya-profilaktika xidmətlərinin xərcləri xaricində, yetkinlər, yeniyetmələr və vərəmli uşaqlar üçün sanatoriyaların təchizatı xərcləri daxildir.

7. “Uşaqlar və yeniyetmələr üçün sanatoriyalar (vərəm olmayan)” bəndinə uşaqlar və yeniyetmələr üçün sanatoriyalar (vərəm olmayan), eləcə də uşaqlı valideynlər üçün sanatoriyaların saxlanılması xərcləri daxildir.

8. “Sanitariya-epidemioloji stansiyalar” bəndinə respublikanın sanitariya-epidemioloji stansiyalarının, gigiyena və epidemioloji mərkəzlərinin saxlanılması xərcləri daxildir.

9. “Dezinfeksiya məntəqələri” bölməsinə müstəqil dezinfeksiya stansiyalarının müstəqil izolyasiya məntəqələrinin texniki xidmət xərcləri daxildir.

10. “Epidemiyayla mübarizə tədbirləri” -nə qeyd etdiyimiz xərclər daxildir: müvəqqəti infeksiya yataqlarının yerləşdirilməsi və saxlanılması, müvəqqəti epidemiya qruplarının təşkili və saxlanılması, müvəqqəti səyyar dezinfeksiya obyektlərinin və infeksion mənbələrdə təcridxanaların təşkili.

11. “Sağlamlıq Mərkəzləri və Sanitar Maarif Evləri” bəndi, sağlamlıq və istirahət mərkəzləri və müəssisələr də daxil olmaqla, sağlamlıq mərkəzlərinin saxlanılması, sanitariya-gigiyena tədbirləri, sanitariya-maarif evləri xərclərini əhatə edir.

12. “Digər səhiyyə şöbələri və tədbirləri” bölməsinə aşağıdakı xərclər daxildir: xəstələrin müalicə üçün digər şəhərlərə göndərilməsi, kənd doğum məntəqələrinin, mama xidmətlərinin, protezlərin (diş üçün protezlər daxil olmaqla) saxlanılması, uşaqlara tibbi xidmət, uşaqların və sağlamlıq mərkəzlərinin sertifikatı, sağlamlıq hesabatları, mərkəzləşdirilmiş formada ödəmə, kompüter mərkəzlərinin saxlanılması, tibb işçilərinin yerdəyişməsi, tibbi konfransların keçirilməsi, tibbi müayinə bürolarının saxlanılması, QİÇS-lə mübarizə tədbirləri, mərkəzlərin informatik şəkildə saxlanması, hökumətin ayrı-ayrı qərarları əsasında tibbi tədbirlərin mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsi xərcləri və s.

Səhiyyə müəssisələri üçün maliyyənin həcmi iqtisadi, habelə sosial inkişaf proqramının göstəricilərinə əsasən müəyyən edilir. Həyata keçirilən sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq, əhalinin sosial ehtiyaclarının ödənilməsi xərcləri və onların ödəniş mənbələrinin tələbləri müəyyənləşdirilir. Sağlamlıq şəbəkəsi - işçi

heyəti və xidmət göstəriciləri hesabat məlumatlarının təhlili əsasında xərclər normalarını nəzərə almaqla bu məqsəd üçün dövlət büdcəsindən ayrılacaq vəsaitin miqdarı müəyyənləşdirilir.

Səhiyyə müəssisələrinin saxlanması üçün hər il dövlət büdcəsindən yüksək məbləğdə vəsait xərclənir. Ölkəmizdə səhiyyə sisteminin maliyyələşdirilməsinə ayrılan büdcə vəsaitlərinin həcminin ildən-ilə artdığını aşağıdakı qrafikdən daha aydın görmək olar:

**Qrafik 6: Səhiyyə sektorunun maliyyələşdirilməsində büdcə xərclərinin dinamikası.**




**Mənbə:** https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Səhiyyə sisteminin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən ayrılan vəsaitin miqdarının artması ölkənin səhiyyə sisteminin gücləndirilməsinin və əhalinin sağlamlığının artırılmasının dövlətin daim diqqət mərkəzində olduğunu sübut edir .

Göründüyü kimi, 2017-ci ildə səhiyyəyə 746.7 milyon manat, 2018-ci ildə 739.3 milyon manat pul ayrılmışdır. 2019-cu ildə bu məqsəd üçün daha çox vəsait ayrılmışdır. Beləliklə, 2019-cu ildə səhiyyəyə 1042.5 milyon manat ayrılmışdır ki,

bu da 2018-ci illə müqayisədə 41 faiz çoxdur. 2020-ci ildə səhiyyənin maliyyələşdirilməsinə 1716.6 mln. manat ayrılıb ki, bu da 2019-cu ilə nisbətən 64.7 faiz çoxdur. Strateji Yol Xəritəsinə əsasən 2021-ci ildə də səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi, bölgələrdə müasir tipli sağlamlıq mərkəzlərinin yaradılması istiqamətində əhəmiyyətli tədbirlər görüləcəkdir. Tibbi xidmətin yaxşılaşdırılması, vərəm hallarının azaldılması və epidemiyalarla mübarizə üçün böyük miqdarda investisiya olacağı proqnozlaşdırılır.

**Qrafik 7: 2020 -ci il üçün səhiyyə xərclərinin tərkibi.**




**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Büdcə təsnifatına görə səhiyyə xərcləri 5 funksional köməkçi hissəyə bölünür. 2020-ci ildə büdcə vəsaitlərinin 164.8 milyon manatı və ya 9.6 faizi xəstəxanalara, 1.2 milyon manata qədər və ya 0.07 faizi poliklinikaların və ambulatoriya klinikalarının maliyyələşdirilməsinə, 1009.1 milyon manatı və ya 58.8 faizi digər səhiyyə xidmətlərinə, 538.7 milyon manat və ya 31.4 %-i tibb sektoruna aid edilən tədqiqatlara ayrılmışdır. Səhiyyə müəssisələrinə xərclər smeta şəklində planlaşdırılır və maliyyələşdirilir. Müəssisələrin xərcləri yerli xərclərin yanında mərkəzi büdcədən maliyyələşdirilir.

Azərbaycanda koronavirus pandemiyası dövründə 2020 – ci ildə dövlət tərəfindən yüklü investisiya ayrılmışdır. Bu səbəbdən bakıda açılan yeni kliniki tibb müəssisəsinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişdir.

Koronavirus və ağır simptomları olan xəstələrin bu müəssisədə müvəqqəti müalicə alacağı qeyd olunur. Bu tibb mərkəzində quraşdırılmış avadanlıq həm müalicə, həm də müayinəni daha yüksək səviyyədə və dəqiqliklə həyata keçirməyə imkan verir. Burada əsas məqsəd Azərbaycan vətəndaşlarına hərtərəfli tibbi xidmətlər göstərməkən ibarətdir.

Tibb mərkəzi 575 çarpayıdan ibarətdir. Klinikada cərrahiyyə, terapiya, təcili yardım, poliklinika, ürək-damar cərrahiyyəsi, hemodializ, neyrocərrahiyyə və digər şöbələr mövcuddur. Xəstəxanada 1500-dən çox həkim və tibb işçisi çalışır. (http://covid19fund.gov.az/az/article/bakida-%E2%80%9Cyeni-klinika%E2%-tibb-muessisesinin-acilisi-olub/).

Göründüyü kimi, hər il səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Fikrimizcə, bu sahədə artan investisiyaların həcmi Azərbaycanın sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir.

# III.FƏSİL. DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN MALİYYƏ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Sosial siyasətin maliyyələşdirilməsində büdcə rolunun artırılması

Respublikamızda iqtisadiyyatın davamlı inkişafı sosial proseslərdə dövlət büdcəsinin rolunu günü-gündən artırır. Əhaliyə göstərilən sosial xidmətlər – təhsil, sağlamlıq, sosial müdafiə və sosial təminat büdcədən ayrılan vəsaitlər hesabına maliyyələşdirilir. Əhalinin sosial ehtiyaclarının da gündən günə artdığını nəzərə alsaq, onların tələbatlarının qarşılanması büdcə vəsaitlərinin defisit maliyyələşdirilməsi hesabına olsa belə, həyata keçirilməlidir. Gələcək dövrlərdə sosial dəyişikliklərin həyata keçirilməsi, əhaliyə göstərilən sosial xidmətin səviyyəsini daha da yaxşılaşdırmaq üçün dövlət büdcəsinin rolu daha da artacaqdır.

İndiki şəraitdə Azərbaycan Respublikasının iqtisadi potensialını artırmaq, mülkiyyət formalarını və təşkilati-iqtisadi quruluşunu yaxşılaşdırmaqla maliyyə siyasətinin səviyyəsini artırmaq lazımdır.

Bu baxımdan büdcə siyasətini formalaşdıran, habelə inkişaf etdirən qanunvericilik bazasının təkmilləşdirilməsi, inflyasiyanın optimal səviyyəsinin müəyyənləşdirilməsi, dövlət və özəl sektorda maliyyə mənbələrinin daha səmərəli istifadəsini müəyyənləşdirmək və proqnozlaşdırmaq vacibdir.

Azərbaycanda iqtisadi inkişafın və iqtisadi təhlükəsizliyin ən mühüm amili bu sahədə keçirilən islahatların effektiv təşkili və idarə olunmasıdır. Respublikamızda sosial islahatların həyata keçirilməsi prosesində əhalinin həyat səviyyəsinə təsir göstərən mənfi meyllər aradan qaldırılmalı, sosial tələbatların lazım olan minimum həcminin ödənilməsi üçün ehtiyyat bazası yaradılmalıdır (Ələkbərov Ə.Ə., 2005: s.56).

Məlumdur ki, sosial tədbirlərin maliyyələşdirilməsi üçün vəsaitlər 3 fərqli mənbə hesabına formalaşır:

1. Dövlət büdcəsi;

2. Dövlət büdcədənkənar fondları, o cümlədən:

- Dövlət Sosial Müdafiə Fondu;

- Məcburi Tibbi Sığorta Fondu.

3. Qeyri-hökumət mənbələri (özəl və dövlət xeyriyyə fondları, dini təşkilatlar və s.).

Dövlət büdcəsi dövlətin mərkəzləşdirilmiş fondudur və dövlət funksiyalarının icrası üçün əsas maliyyə mənbəyi rolunu oynayır. Bundan əlavə, büdcə müəyyən bir dövr (il, rüb, ay) üçün gəlir və xərcləri göstərən əsas maliyyə sənədidir.

Bildiyimiz kimi, bazar iqtisadiyyatında sosial ehtiyaclar üçün büdcə xərcləri xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bu dövrdə inflyasiyanın artması ilə əhalinin yaşayış səviyyəsinin, eləcə də əhalinin əksəriyyətinin real gəlirlərinin əhəmiyyətli dərəcədə azalması, dövlət büdcəsinin sosial məqsədli xərclərinin artmasına gətirib çıxarır.

Müasir şəraitdə sosial inkişafı təmin etmək, büdcədən bu sahə üçün ayrılacaq vəsaitlərin düzgün miqdarını müəyyən etmək üçün əhalinin sosial təminatı və sosial müdafiəsi tədbirlərini kompleks sistem halında işləmək lazımdır. Bununla yanaşı, əhalinin məşğulluğu və əhali gəlirlərinin indeksləşdirilməsi prosesini qanunların tələblərinə uyğun olaraq həyata keçirmək vacibdir. Bu istiqamətdə qiymətlərin liberallaşdırılması, sağlam rəqabətin yaradılması, antiinhisar siyasətinin işlənib hazırlanması təmin olunur. Dövlətin sosial siyasətində və onda büdcənin rolunun artırılmasında həyata keçirdiyi islahatlar nə qədər çoxsahəli olsa, onları uğurla davam etdirmək və milli iqtisadiyyatımızı davamlı inkişaf etdirmək mümkün olacaqdır.

Bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsi hesabına hər bir regionda sosial-infrastruktur sahəsinin  səmərəli və davamlı inkişafına imkan yaradılmalıdır. Belə ki, hər bir regionun konkret vəziyyəti dəyərləndirilməli, əhalinin sosial tələbatlarının qarşılanması üçün büdcədən ayrılan vəsaitlərin miqdarı dəqiqləşdirilməli və mövcud vəziyyətə uyğun olaraq düzgün maliyyələşdirilməlidir. Bu mürəkkəb və coxsahəli vəziyyəti tənzimləmək məqsədi ilə makro və mikro səviyyədə sosial infrastrukturun yaradılması tamamilə müasir prinsiplərə əsasən baş tutmalıdır. Bu prinsiplərin ən

başlıca olanlarından biri əhalinin milli xüsusiyyətinin, tərkibinin, hər bir regionun iqlim şəraitinin və sosial inkişaf səviyyəsinin müəyyənləşdirilməsidir.

Sosial infrastrukturun əsas tərkib hissələri hesab olunan sahələr, xüsusilə, elm, səhiyyə, mədəniyyət, gənclər siyasəti və digər ictimai əhəmiyyətli sferaların inkişafı dövlət büdcəsi hesabına maliyyələşdirlir və tənzimlənir. Beləliklə, ölkə iqtisadiyyatında baş verən əhəmiyyətli dəyişikliklər, uyğun olaraq hər bir sahənin və regionun sosial-iqtisadi inkişafının təmin olunması və tənzimlənməsində büdcənin rolu və funkisiyasının daha da gücləndirilməsi vacibdir. Buna uyğun olaraq, xüsusilə ölkə istisadiyyatının strateji sahələrində nəzərdə tutulmuş xarici investisiyalardan gələn gəlirlər də sosial sahənin və infrastrukturun gücləndirilməsi və kompleks inkişafını təmin etmək məqsədi bu sahələrə yönəldilməlidir.

Bazar iqtisadiyyatı şəraitində sosial inkişaf xüsusi vəsaitlər, yerli büdcələr, bələdiyyə büdcələri və həmçinin əhalinin vəsaitləri hesabına təmin olunur. Büdcənin sosial yönümlüyü büdcə xərclərində sosial sahələrin payı ilə müəyyən olunur.

Sosial ehtiyaclarla bağlı xərclərin miqdarı dövlətin sosial-iqtisadi funksialarının yerinə yetirilməsi ilə bağlıdır. Bu xərclərə elm, mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri, tibb, idman, sosial müdafiə və təminatla bağlı ödənişlər daxildir.

Sosial xərclər smeta planlaşdırması prinsipinə əsasən müəyyən olunur. Bu xərclər konkret məsrəf növlərinə görə maliyyələşdirilir. Xərclərin həcminin müəyyənləşdirilməsi qeyri-istehsal müəssisələrinin smetası və maliyyə qurumları tərəfindən tərtib olunmuş təxsisat hesablamaları, həmçinin aparılmış əməliyyatlara əsasən baş tutur.

Büdcə təşkilatlarının smetalarında xərclərin hesablanması onların fəaliyyət göstəricilərinə, il ərzində fəliyyətdə olduğu müddətə uyğun olaraq həyata keçirilir.

Büdcədən ayrılan xərclər sosial-mədəni tədbirlərin maliyyələşdirilməsi üçün ilbəil artır. Bunu daha aydın görmək üçün aşağıdakı cədvələ nəzər salaq:

**Cədvəl 2: Dövlət büdcəsi xərclərinin dinamikası (milyon manatla).**

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Dövlət büdcəsi xərcləri – cəmi | 25190,0 | 27492,0 | 28543,0 |
| Sosial-mədəni tədbirlər üçün xərclər | 6307,9 | 8414,4 | 8797,5 |
| Büdcə xərclərində %-lə | 25,0% | 30,6% | 30,8% |
| Ondan: | | | |
| Təhsilə | 2285,9 | 3034,7 | 3277,6 |
| Büdcə xərclərində %-lə | 9,1% | 11,0% | 11,5% |
| Səhiyyəyə | 1042,5 | 1716,6 | 1409,0 |
| Büdcə xərclərinə %-lə | 4,1% | 6,2% | 5,0% |
| Sosial müdafiəyə və sosial təminata | 2620,4 | 3237,0 | 3692,7 |
| Büdcə xərclərinə %-lə | 10,4% | 11,8% | 12,9% |
| Mədəniyyət, incəsənət, informasiya vasiyələri, idman və gənclər siyasətinə | 359,1 | 426,1 | 418,2 |
| Büdcə xərclərinə %-lə | 1,4% | 1,5% | 1,5% |

**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldən göründüyü kimi, ölkədə, xüsusən son illərdə olan iqtisadi çətinliklərə baxmayaraq sosial tədbirlərə ayrılan büdcə vəsaitinin həcmi azalmamış, əksinə daha da artmışdır. Bu da sosial siyasətin maliyyələşdirilməsi sisteminin gücləndirilməsinə, əhalinin rifahının və sosial müdafiənin daha da yaxşılaşdırılmasına dövlətin nə qədər önəm verdiyini əyani sübut edir.

Dövlət büdcəsi daxilolmalarında Neft Fondundan daxil olan vəsaitlərin, o cümlədən büdcənin gəlir və xərclərinin azalmasına baxmayaraq 2021-ci ilin dövlət büdcəsi də sosıalyönümlü olması ilə seçilir.

2021-ci il ilin dövlət büdcəsində sosial xərclərin 30,8% həcmində olması, və ya 2020-ci ilə nəzərən 4,6% daha çox nəzərdə tutulması büdcənin tərtibi prosesində əsas diqqətin xalqın rifah halının yaxşılaşdırılmasına yönəldildiyini göstərir. 2021-ci ildə təhsil xərcləri 3277,6 milyon manat nəzərdə tululmuşdur ki, bu da 2019-cu ilə nisbətən 43%, 2020-ci illə müqayisədə isə 8% çoxdur.

Sosial sahədə aparılan islahatların nəticəsi səhiyyə sahəsinə də öz təsirini göstərmişdir. Belə ki, 2021-ci ildə bu sahənin maliyyələşdirilməsinə 1409,0 milyon manat xərclənməsi nəzərdə tutulmuşdur.

2021-ci ildə sosial müdafiə və sosial təminatın maliyyələşdirilməsinə ümumi büdcə xərclərinin 12,9%-ə qədəri, yəni 3692,7 milyon manat xərclənəcəkdir ki, bu da əvvəlki illə müqayisədə 14,1%, 2019-cu ilə nəzərən isə 40,9% yüksəkdir.

Sosial xərclərin tərkibində mədəniyyət, idman və gənclər siyasəti, kütləvi informasiyaya ayrılan vəsaitlərin miqdarı da son illərdə xeyli artmışdır. 2021-ci il üçün bu sahəyə büdcədən ayırmaların həcmi 418,2 milyon manat təşkil edir. Bu da keçən ilin göstəriciləri ilə oxşar, 2019-cu illə müqayisədə isə 16,5% coxdur.

Ölkəmizdə həyata keçirilən çevik sosial-iqtisadi siyasət öz növbəsində dövlət büdcəsinə, gəlirlərin və xərclərin dinamikasına öz təsirini göstərmişdir. Uğurlu islahatların və davamlı iqtisadi siyasətin nəticəsi olaraq büdcənin gəlir və xərclərinin ümumi daxili məhsula olan nisbəti ildən-ilə dəyişmişdir.

Büdcə-vergi siyasətinə uyğun olaraq, ölkədə makroiqtisadi sabitliyin möhkəmlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, cəmiyyətin sosial vəziyyətinin yaxşılaşdırılması və dövlət büdcəsi kəsrinin minimuma endirilməsi istiqamətində uğurlu addımlar atılır.

Büdcə-vergi siyasətinin davamlı inkişafı nəticəsində dövlətin iqtisadi gücünün daha da artırılmasına, regionların inkişafı, qeyri-neft sektorunun, o cümlədən sahibkarlığın və xalqın rifahının yaxşılaşdırılmasına nail olunur. Dövlət büdcəsi son illərdə inkişaf və quruculuq istiqamətinə yönəldilmiş, görülən tədbirlərin, islahatların və dövlət proqramlarının maliyyə mənbəyi kimi çıxış etmişdir.

Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə yaradılan güclü sosial-iqtisadi potensiala arxalanaraq dövlətimizin milli maraqlarının təmın olunması, sosial-iqtisadi kursun müasir iqtisadi mühit və gerçəkliklər şəraitində davamlı inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Bütün bu proseslər onu göstərir ki, ölkəmizin günü-gündən artan iqtisadi inkişafı sosial sahəyə də öz təsirini əhəmiyyətli şəkildə göstərir. Qeyd etməliyik ki, Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasət özünün sosialyönümülük faktorunu əsas planda tutur, hər il dövlət büdcəsi təsdiq olunarkən onun sosial yönümlülüyü prioritet olaraq qalır.

## 3.2. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri

Ölkəmiz əhali rifahının yaxşılaşdırılması, habelə güclü sosial müdafiə sisteminin yaradılması istiqamətində ciddi irəliləyişlərə imza atmışdır. Dünya təcrübəsinə əsaslanan ədəbiyyatlar göstərir ki, dövlətlərin inkişaf səviyyəsi təbii ehtiyatların mövcudluğu ilə deyil, bu resursların yüksək potensiallı insan kapitalına çevrilməsi, təhsil iqtisadiyyatının formalaşması və cəmiyyətin sosial inkişafı ilə müəyyən edilir. Buna görə də, Azərbaycanda sosial siyasətin bütün sahələrinin inkişafı və maliyyə təhlükəsizliyinin gücləndirilməsi hər zaman dövlətin diqqət mərkəzində olmuşdur.

Sosial siyasətin inkişafı ölkənin sosial-iqtisadi inkişafı və maliyyə mənbələrinin artması ilə birbaşa bağlıdır. Maliyyə təhlükəsizliyinin yaxşılaşdırılması və dövlət siyasətinin maliyyələşdirmə sisteminin təkmilləşdirilməsi maliyyə imkanlarını artırmaq üçün son illər olduqca vacibdir.

Büdcə siyasətinin konseptual əsasları əhalinin ehtiyaclarını ödəmək və dövlət gəlirlərinin səmərəli idarə olunması yolu ilə respublikanın sosial-iqtisadi inkişaf istiqamətidir. Dövlətin bütün mənbələri hesabına maliyyə mənbələri

balanslaşdırılmış iqtisadi inkişaf və sosial müdafiə hədəflərinə yönəlmiş daha təsirli prioritetlərə əsaslanır.

Hər bir ölkənin maliyyə siyasəti resurs potensialını, istifadəsini və uzunmüddətli inkişafı təmin edən təsirli mexanizmlərə əsaslanır. Bu baxımdan, maliyyə siyasətinin ən mühüm prinsipləri iqtisadi quruluşun yanında bütün strukturların və ayrı-ayrı sosial-iqtisadi inkişaf mənbələrinin balanslaşdırılmış inkişaf dinamikasına nail olmaq üçün şərait yaratmaqdır.

Son illərdə ölkədə yaranan maliyyə mənbələri, istifadə mexanizmləri, xarici maliyyə şirkətlərinin imkanlarından istifadə mexanizmləri və dövlət gəlirlərinin idarə edilməsinin təkmilləşdirilməsi mexanizmləri müasir maliyyə inkişaf formaları və konseptual yanaşmaların ortaya çıxmasına səbəb olur.

ÜDM böyüdükcə maliyyə mənbələri də artır. Neft yataqlarına əlavə olaraq, digər yerlərdə və qeyri-dövlət sahələrində resurs potensialının payı artır. Maliyyə mənbələrinin formalaşmasında iqtisadiyyatın strukturu və səmərəliliyi bazarın ehtiyaclarına uyğun olaraq maddi ehtiyatların istehsalata cəlb edilməsi prosesinə təsir göstərir.

Bildiyimiz kimi, hər hansı bir ölkənin maliyyə mənbələri dövlət, müəssisə (təşkilat), habelə əhali (ev təsərrüfatı) kimi üç sahədə əlaqə qurur və fəaliyyət göstərir. Cəmiyyətin həyat fəaliyyətinin ən mühüm sahəsi olan sosial sahənin maliyyə mənbələri də bu subyektlərin iştirakı ilə artır və paylanır (Crouch T.A., 2013).

Bazar iqtisadiyyatının obyektiv nəticəsi budur ki, əsas sosial sahələrin kommersiyalaşmaya doğru hərəkətinin idarə olunmasının çətinləşməsi, yəni, əhali gəlirlərinin diferensiallaşmasının artması, maliyyə yükünün kortəbii formada əhali gəlirlərinə köçürülməsinin qarşısı alınmalıdır. Ona görə də, sosial sferanın daha düzgün inkişaf etməsi və onun maliyyə təminatının təkmilləşdirilməsi üçün dövlət tərəfindən sistematik islahatlar aparılmalıdır.

Sosial siyasətin maliyyələşdirilməsi sisteminin, təkmilləşdirilməsindən danışarkən büdcə-maliyyə nəzarəti sisteminin əhəmiyyətini qeyd etmək lazımdır.

İqtisadi və sosial sahələrin inkişaf etdiyi müasir vəziyyətdə xalq təsərrüfatının idarə olunmasında, xüsusən də bazar iqtisadiyyatı şəraitində maliyyə nəzarətinin rolu gündən-günə artmaqdadır.

Maliyyə nəzarəti maliyyənin iqtisadi münasibətlər sistemi kimi mahiyyəti ilə xarakterizə edilir. Bu iqtisadi münasibətlər sistemi mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş maliyyə ehtiyyatları fondunun yaradılması və istifadəsi ilə əlaqədardır.

Ölkəmizdə dövlət maliyyə nəzarəti Azərbaycan Respublikasının Konstitusiyasına, Vergi Məcəlləsinə, Azərbaycan Respublikasının «Büdcə sistemi haqqında» Qanununa, Gömrük Məcəlləsinə, «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

Büdcə-maliyyə nəzarətinə əsasən ölkə səviyyəsində bütün gəlirlərin səfərbər olunması təmin edilir, həmçinin büdcə fondlarının vəsaitlərinin məqsədyönlü şəkildə xərclənməsinə nail olunur (Hakimova Y.A., 2020: s.266).

Büdcə sisteminin yaxşılaşdırlması, sosial-mədəni tədbirlərə ayrılan vəsaitin daha planlı və səmərəli istifadəsi üçün maliyyə nəzarətinin həyata keçirilməsi vacibdir.

Dövlət sektorunda malıyyə təhlükəsizliyinin gücləndirilməsi maliyyə yükünün dövlət, müəssisələrlə ev təsərrüfatlarının arasında bölgüsünün optimallaşdırılmasına yönəlmiş bazar alətlərinin daha səmərəli istifadə olunması ilə bağlıdır. Sosial səbəblərdən (xəstəlik, ahıllıq, işsizlik, istehsalatda yaralanma) əlillik sığortası mexanizmləri, xüsusi olaraq icbari tibbi sığortanın tətbiq edilməsi və s. bu alətlərə daxildir.

Maliyyə baxımından bu vasitələrdən istifadə edərək mənbələrin yaradılması aşağıdakı nəticələrə gətirib çıxaracaqdır:

- Məcburi proqramlar çərçivəsində müəssisələrin sosial sığorta fondlarının payında müvafiq azalma və sosial təyinatlı vəsaitlərin ümumi həcminə əsasən ev təsərrüfatlarının payının artırılması;

- Büdcədən kənar dövlət fondlarının və sosial sahənin payının bir qədər artırılmasına yönəlmiş büdcə, dövlət və qeyri-dövlət maliyyə axınları arasındakı münasibətlərin ənənəvi quruluşunun dəyişdirilməsi (Soy İ.V., 2014).

Sosial sferada mənbələrin keyfiyyətli paylanması xüsusi bir məsələdir. Əlavə olaraq, sosial xidmətlərin maliyyələşdirilməsi "yükünün" yenidən bölüşdürülməsi, bəzən müqayisə onunan keyfiyyət artımı olmadan, hətta tibb, təhsil və digər xidmətlərin pisləşməsi ilə birlikdə nəzarətsiz ödəniş formaları alır.

Bundan əlavə, uzunmüddətli bir büdcə maliyyəsi çatışmazlığı meydana çıxaraq sosial infrastrukturun çökməsi ilə əhalinin başlıca qruplarının gəlirlərinə uyğun olmayan pullu bazalarda artım yaranır.

Burada diqqət edilməsi mühüm məqamlar aşağıdakılardır:

1) ehtiyaclılara həqiqətən dəstək verən məqsədyönlü gücləndirmə;

2) sosial xidmətlərin keyfiyyəti üzərində istehlakçı nəzarətinin genişləndirilməsi;

3) sosial təminat mexanizminin əsas hüquqi təminatında dövlətin rolunu artırmaq;

4) qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarının sosial məqsədlər üçün proqramların həyata keçirilməsində fəal iştirakının artırılması.

Dövlət büdcəsinin sosial-iqtisadi əhəmiyyəti, maliyyələşdirmə mənbəyi və investisiya qoyuluşunun məqsədi sosial inkişafa maddi zəmin yaratmaqdır.

Ümumiyyətlə, bütün dövlətlərin sosial-iqtisadi inkişafı, dövlət büdcəsinin quruluşu, büdcədə əks edilən inkişaf sahələriylə müəyyənləşdirilir. Dövlət büdcəsinə təhsil, tibb, mədəniyyət və əhalinin rifah vəziyyəti  üçün sosial müdafiə tədbirləri daxil edilir.

Əhalinin rifahı üçün mövcud və gələcək xərclər ictimai istehsal və xidmət müəssisələrinin açılması və onların kommersiya fəaliyyətindən daha çox tələbə cavab verən inkişafı ilə əlaqədardır. Bu mərhələdə sosial xərclərin intensiv artımını davam etdirmək mümkün olmadığı üçün müxtəlif büdcədən kənar mənbələrin fəal axtarışının rolu gücləndirilir (Rəhmanov F.P., 2002: s.69):

- pensiya fondları, işsizlik sığortası və fondların işləmə mexanizmi vasitəsilə bütün icbari və könüllü sosial sığortanın genişləndirilməsi;
- mənzil və sosial infrastrukturun tikintisini maliyyələşdirmək üçün firmalardan və ev təsərrüfatlarından vəsait cəlb etməyin qeyri-ənənəvi formaları;
- pullu diferensial keyfiyyətli sosial xidmətlər sahəsinin genişləndirilməsi;
- hökumət və qeyri-hökumət təşkilatlarının regional səviyyədə daxil olmaqla sosial əhəmiyyətli problemləri həll etmək potensialından istifadə etmək;
- xarici mənbələr hesabına maliyyələşdirilən beynəlxalq layihə, habelə proqramlarda iştirak etmək və s.

Bazar iqtisadiyyatı şəraitində sosial problemlərin həll edilməsi qaçılmazdır. Bazar və iqtisadi şərtlər olmadan, birbaşa dövlət təsir metodları və ictimai prosesləri tənzimləmək kimi köhnə metodlara müraciət etmək ümidləri doğru olmayacaqdır (Muradov A.N., 2006: s.102).

Sosial sektorun maliyyələşdirməsinin effektivliyi əsasən sosial sektorun bazar iqtisadiyyatı qanunlarına nə qədər tez uyğunlaşmasından və onu həyata keçirərkən hansı obyektiv və subyektiv şərtlərin nəzərə alınmasından asılıdır (Özgür H.N., 2008: s.125).

İnkişaf etmiş bütün ölkələrdə iqtisadiyyatın sosial istiqaməti bir neçə cür həyata keçirilir. Dövlətin ən vacib sosial prioritetlərinin həyata keçirilməsində iştirak etməsi və onları sosial sığorta mexanizmləriylə birləşdirilməsi vacibdir.

Dövlət maliyyəsi sosial sahə üçün olduqca vacibdir. Cəmiyyətin parçalanmasının qarşısını almaq və gələcəkdə onu keyfiyyətcə yeni əsaslarla bərpa etmək dövlətin əsas funksiyalarından biridir. Bu, çoxkanallı maliyyələşdirmə mexanizminin effektiv tətbiqi büdcə vəsaitləri, fiziki və hüquqi şəxslərdən alınan vəsait hesabına hüquqi və təşkilati şəraitin yaradılmasını tələb edir. Yaxın gələcəkdə sosial sahədə büdcə prosesi iki əsas məsələyə yönəldilməlidir:

**Sxem 4: Sosial sahədə büdcə prosesi.**




**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

Xalqın qorunmasının əsas mövzusu, əhalinin sosial müdafiə sistemi olan dövlət maliyyə siyasəti, sosial sektorun iqtisadiyyatına nəzarət təsirini göstərir. Nağd pul dövlətə və onun qurumlarına, bölgələrə və yerli özünüidarə orqanlarına, müəssisələrə, təşkilatlara, qruplara və şəxslərə aid ola bilər.

Maliyyə idarəetməsi dövlətin maliyyə mexanizminin məqsədyönlü istifadəsindən asılıdır. Bunu xüsusi təşkilatlar (qurumlar) həyata keçirir. İdarəetmə bir neçə funksional elementi əhatə edir:

- Proqnozlaşdırma,
- Planlaşdırma,
- Praktik idarəetmə,
- Tənzimləmə və nəzarət.

Bu elementlərin hamısı dövlət qurumlarının, hüquqi şəxslərin və vətəndaşların mövcud işində maliyyə siyasəti tədbirlərini təmin etmək üçün lazımdır.

İqtisadi təşkilatlar dövlət, müəssisələr və işəgötürənlər və əhali olmaqla 3 kateqoriyaya bölünür.

Maliyyə dövlət iqtisadi sisteminin bütün sahələrinə öz təsirini göstərir. Konkret maliyyə münasibətləri formaları dövlətin bu işə təsirinin ən güclü vasitəsi olmaqla yanaşı, sektorların, bölgələrin, sosial təbəqələrin, əhali qruplarının və ayrı-ayrı vətəndaşların iqtısadi mənafelərinin qarşılıqlı əlaqəsi və əlaqələndirilməsi vasitəsidir (Bağırov D.A., Həsənli M.X., 2011). Ümumiyyətlə maliyyə büdcəsi iqtisadi və sosial prosesləri tənzimləməyə kömək edir.

Maliyyələşmənin əsas funksiyalarının sosial sferada reallaşması aşağıda göstərilən prinsiplərə əsasən baş verir (Bağırov D.A., Həsənli M.X., 2011):

1. Sosial və maliyyə amilləri vasitəsi ilə sosial müdafiə səviyyəsinin artırılması və sosial fondların formalaşdırılması prinsipi iqtisadi islahatların (özəlləşdirmə, vergi sisteminin gücləndirilməsi, kreditləşdirmə və s.) və əsas tədbirlərinin maksimum tətbiqi deməkdir;

2. İctimai rəy prinsipi inflyasiya, yaşayış maliyyəti, yaşayış üçün minimum büdcənin artması, əmək qabiliyyəti olan əhalinin məşğulluq səviyyəsindəki dəyişikliklər və maddi sərvət artımı ilə əlaqəli qaynaqların bölgüsündə sosial normaların yenidən nəzərdən keçirilməsini nəzərdə tutur;

3. Bölgənin xüsusiyyətlərindən və yerli şəraitdən asılı olmaqla ayrılan pul və sosial yardımın miqdarının müəyyənləşdirilməsində fərqləndirilmiş yanaşmanın mövcudluğu;

4. Qanunvericiliyə əsasən vəsaitlərin toplanmasında və istifadə edilməsində yerli hakimiyyət orqanlarının müstəqilliyi prinsipi;

5. İqtisadi səmərəliliyin ölçüsü əsasən sosial xərclərin miqdarı və onların maliyyələşdirilməsinə ayrılan məbləğlə müəyyən edilir və makroiqtisadi göstəricilərlə qarşılıqlı müqayisə olunur;

6. Əsas sosial vəzifələrə (yaşayış səviyyəsi, elm, mədəniyyət, təhsil, səhiyyə, ekologiya) ayrılacaq vəsaitlərin həcminin dövlət minimum standartlarında omasının uçotu;

7. Əlavə büdcə daxilolmalarının bölgüsündə və digər büdcə xərcləri ilə müqayisədə sosial xərclərin artım sürətində sosial sistemin üstünlükləri.

Sosial proqramlar üzrə xərc sisteminin formalaşdırılması dövlətin sosial siyasətinin başlıca istiqamətlərinə uyğun olaraq həyata keçirilməlidir.

Bazar iqtisadiyyatında maliyyə və kredit sektorlarında dövlətin mərkəzi rolunun məhdudlaşdırılması və büdcədənkənar fondların rolunun artırılması tələb olunur.

Buradakı əsas xüsusiyyətlərdən biri budur ki, büdcədənkənar fondlar artıq təkcə maliyyə qurumları deyil, maliyyə və kredit qurumlarıdır, çünki bu fondların vəsaitlərinin müəyyən bir hissəsi kommersiya əsasında istifadə olunur. Dövlət sosial təminat sistemi əsasən yerli mənbələr tərəfindən gücləndirilir. Vergilər bütün səviyyələrdə, xüsusən də yerli büdcələrin formalaşmasının əsas mənbəyidir.

Sosial müdafiə sisteminin və ümumiyyətlə dövlət sektorunun maliyyələşdirilməsində respublika və yerli özünüidarəetmə arasında səlahiyyətlərdə müəyyən məhdudiyyətlər var. Belə ki, respublika orqanları vasitəsilə (Ələkbərov Ə.Ə., 2005):

- Büdcədənkənar dövlət fondları, Dövlət Sosial Müdafiə Fondu, əhaliyə pensiya təminatı, məşğulluq və sosial yardım institutu yaranır;
- Respublikanın idarə etdiyi sosial infrastruktur maliyyələşdirilir.

Yerli orqanların səlahiyyətlərinə isə aşağıdakılar daxildir:

- yerli şərtlər nəzərə alınmaqla regional sosial proqramlar hazırlamaq və həyata keçirmək, milli səviyyədə müəyyən edilmiş minimum təminatları artırmaq imkanlarını araşdırmaq;
- aşağı təbəqələrə sosial yardım qaydalarının yaradılması və həyata keçirilməsi, ictimai və xeyriyyə fondlarının işləməsi üçün şərait yaradılması;
- yerli hakimiyyət orqanları tərəfindən idarə olunan sosial infrastrukturun təmin edilməsi.

Sosial müdafiənin maliyyələşdirilməsi 2 üsulla həyata keçirilir:

1) birbaşa maliyyələşmə (bu zaman maliyyə vəsaitləri məqsədli təyinata uyğun olaraq sosial müdafiəyə yönəldilir);

2) dolayı maliyyələşmə.

Sosial müdafiə sisteminin maliyyələşdirilməsi mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Son illərdə qanunvericilik bazası gücləndirilmiş və müvafiq qanunlar təsdiq edilmişdir.

Bu normativ sənədlər vasitəsilə inkişaf proqnozlarının, büdcə layihələrinin hazırlanması və həyata keçirilməsində istifadə olunur. İnkişaf etmiş ölkələrdə ticarət və dövlət sektorları ilə yanaşı iqtisadiyyatın "üçüncü sektoru" da adlanan xeyriyyə təşkilatları fəaliyyət göstərir. Məsələn, ABŞ-da bu sektorun ümumi milli məhsulda payı 4% - dir. Xeyriyyə təşkilatlarının əsas vəsaitlərini təkcə ianələr deyil, dövlətdən alınan vəsaitlər təşkil edir. Büdcənin demək olar ki, yarısı dövlət tərəfindən maliyyələşdirilir. Xeyriyyə təşkilatları, dövlət tərəfindən əsasən, müqavilələr sistemi vasitəsilə müəyyənləşdirilir. Bu isə yerli resursların daha fəal cəlb edilməsini, resursların qənaətlə istifadəsini təmin edir.

Yerli büdcələrin özünümaliyyələşdirmə və yerli sahibkarlığın inkişafındakı maraq əsasında formalaşması, müxtəlif səviyyələrdə büdcələrə dəqiq şəkildə resursların ayrılması sistemini daha da təkmilləşdirmişdir. Buna görə də, sosial siyasətin inkişafı və uğurlu fəaliyyəti üçün onun maliyyələşdirmə prinsiplərini və təcrübələrini daha da təkmilləşdirmək lazımdır.

Prezidentin 4 noyabr 2014-cü il tarixli 827 nömrəli Fərmanı ilə təsdiq edilmiş "2014-2020-ci illər üçün Azərbaycan Respublikasında pensiya sisteminin islahatı Konsepsiyası" na uyğun olaraq, ölkədə pensiya islahatının yeni mərhələsi üçün prioritetlər müəyyənləşdirilmiş və ölkənin pensiya sistemində sığorta siyasətləri gücləndirilmişdir.

Bu siyasətə bərabərliyinin təmin edilməsi, sığorta və pensiya sisteminin uzunmüddətli inkişafı, pensiyaların  könüllü qənaət komponentinin real təcrübədə istifadəsi üçün mövcud təhlilə əsaslanan dövlət pensiya institutlarının və mexanizmlərin yaradılması daxildir.

Bu baxımdan, pensiya sistemi ilə bağlı qanunvericilikdə sığorta prinsipləri təkmilləşdirilməli və sığorta sisteminin uzunmüddətli maliyyə dayanıqlığı təmin edilməlidir.

2016-2020-ci illərdə əmək pensiyaları sisteminin əsas hissəsinin yenidən qurulması iştirakçıların sığorta və pensiya sistemlərinə marağını azaldan vəziyyəti aradan qaldıracaqdır. Mühüm bir islahat tədbiri olaraq tətbiq edilən peşə pensiyasının əsas hissəsindəki dəyişiklik, işçilərin fərdi hesablarındakı ödənilən sığorta haqlarının yarısının deyil, tam məbləğinin uçota alınması təmin olunacaqdır. Bu qaydanın tətbiq olunması, sosial sığorta ödəyicilərinin daha yüksək pensiya almasına və maaşların tam qeydiyyat əsasında aparılmasına təkan verəcəkdir.

Digər tərəfdən bu konsepsiyaya əsasən minimum təqaüd üçün vəsait toplamış insanların ümumiyyətlə təcrübə keçmələri tələb olunmur. Əmək pensiyalarının əsas hissəsi ən aşağı pensiya göstəricisi ilə əvəz ediləcək ki, bu da indeksləşdirilməyə və ümumi pensiya miqdarının artmasına imkan verəcəkdir.

İslahatın əsas məqsədlərindən biri sığorta və pensiya sistemi öhdəliklərinin maliyyə mənbələrini dövlətin pensiya təminatındakı öhdəliklərindən fərqləndirməkdir.

Bu tədbir nəticəsində 1 yanvar 1992-ci il tarixinədək olan dövr üçün pensiya təminatında formalaşmış məbləğlər və bəzi kateqoriyalarda olan şəxslərin pensiyalarına ayırmalar dövlət öhdəliyi hesab ediləcək və birbaşa dövlət büdcəsindən maliyyələşdiriləcəkdir.

Dövlətin öhdəlikləri ilə sığorta və pensiya sisteminin öhdəlikləri arasında fərq qoyulması sığorta və pensiya sisteminin uzunmüddətli maliyyə dayanıqlığını daha da gücləndirəcəkdir.

Təqaüd sistemində sığorta prinsiplərinin təkmilləşdirilməsi istiqamətlərinə uyğun olaraq, sığorta ödənişləri strukturunda sığortalının məsuliyyətinin tədricən artırılması tələb olunur. Bu məqsədlə sığorta haqqının müəyyən bir hissəsinin işəgötürən tərəfindən tədricən işçiyə köçürülməsi nəzərdə tutulur.

Eyni zamanda, sosial təminat maaşlarında müəyyən limitlərin müəyyənləşdirilməsi, bu məbləğdə ödənilən sosial sığorta ödənişlərindən istifadə kimi təşviqlər, vətəndaşlara əlavə könüllü sığorta haqları ödəməklə pensiya kapitalını artıra bilər.

DSMF-də "Azərbaycan Respublikasında 2014-2020-ci illər üçün Pensiya İslahatları Konsepsiyası" ilə bağlı tapşırıqları yerinə yetirmək üçün xüsusi koordinasiya komissiyası yaradılmışdır. Təqaüd islahatı çərçivəsində qanunvericiliyə dəyişikliklər, texniki təlim və digər tədbirlər daxil olmaqla fondda geniş hazırlıqların aparılması üçün tədbirlər həyata keçirilir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Bütün dünyada artan qlobal maliyyə inkişafına baxmayaraq, Respublikamızın ölkə iqtisadiyyatı ölkə başçımız İlham Əliyevin apardığı uzaqgörən siyasətin nəticəsində inkişaf səviyyəsinə görə dünya iqtisadiyyatından geri qalmır.

İqtisadi inkişafdakı nailiyyətlər sosial məsuliyyəti, təhsil, səhiyyə, sosial müdafiə və sosial rifah, idman və gənclər siyasətinin vacib komponentlərini sabit və davamlı hala gətirmiş və sosial sahələrin inkişafı üçün kifayət qədər büdcə vəsaiti ayrılmışdır.

Dünya iqtisadiyyatında gedən proseslərə, Azərbaycanın yerləşdiyi bölgədəki geosiyasi gərginliyə baxmayaraq, ölkə iqtisadiyyatı 2019 – 2020 - ci illərdə inkişaf etmiş və maliyyə sabitliyinə nail olunmuşdur.

2020-ci ildə Azərbaycanda ÜDM 4,3% azalsa da, 2021-ci ildə bu göstəricinin 1,9% artması proqnozlaşdırılır. Bu isə əvvəlki illərə nisbətən daha aşağı olsa da, çətin bir xarici iqtisadi mühitdə, xüsusən COVID-19 pandemiyası səbəbilə ölkənin makroiqtisadi sabitliyinə təzyiqlərin artmış və nəticədə valyuta gəlirləri əhəmiyyətli dərəcədə azalmış olmasına baxmayaraq bu vəziyyət müasir dövr üçün qənaətbəxş hesab edilə bilər.

2020 - ci il ərzində dövlət büdcəsindən maliyyələşdiriləcək bütün dövlət öhdəlikləri, böyük dövlət proqramları və prioritet layihələr tam maliyyələşdirilmişdir. 2020-cu ildə dövlət büdcəsinin gəlirləri 24124,0 milyon manat olmuşdur ki, bu da 2019-ci illə müqayisədə 4.1% çoxdur.

Bununla birlikdə, sosial xərclərin prioritet sahələrini qoruyaraq bu məqsədlə ümumi büdcə xərclərinin 8414,4 milyon manatı, və ya 30,6%- i ayrılmışdır ki, bu da 2019-cu illə nəzərən 33,4% yüksəkdir.

2020-ci ildə dövlət büdcəsindən təhsilə 3034,7 milyon manat xərclənmişdir ki, bu da keçən illə müqayisədə 748,8 milyon manat yaxud 32,7 faiz çoxdur. 2020-ci il ərzində ayrılan vəsaitin 230 milyon manatı bu sahədə dövlət planlarının və tədbirlərinin maliyyələşdirilməsinə ayrılmışdır.

Azərbaycan Prezidentinin müvafiq qərarına uyğun olaraq 2020-ci il dövlət büdcəsində səhiyyə sahəsinə 1716,6 milyon manat ayrılmışdır ki, bu da 2019-cu illə müqayisədə 64,6% çoxdur.

Prezident İlham Əliyevin sosial vəziyyəti yaxşılaşdırmaq və ölkə əhalisinin sosial müdafiəsini gücləndirmək səylərinə uyğun olaraq, 2020-ci il ərzində büdcə vəsaitlərindən sosial müdafiə və sosial təminat üçün 3237,7 milyon manat ayrılmışdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, keçən il dövlət büdcəsinin cari və əsas xərclərindən yüksək məbləğdə vəsait qaçqın və miqrantların sosial müdafiəsini gücləndirmək üçün xərclənmişdir.

Şəffaflığı təmin etmək üçün aztəminatlı ailələrə ünvanlı sosial yardım təyin edilərkən elektron qaydalar qəbul edilmiş və bu qaydalara əsasən dövlət büdcəsi hesabına müvafiq məqsədə hər il yüksək məbləğdə vəsait ayrılmaqdadır.

Azərbaycanda təhsilin inkişaf konsepsiyası ölkə prezidentinin rəhbərliyi və qayğısı ilə hazırlanmış və uğurla həyata keçirilmişdir. Bununla birlikdə, təhsilin inkişafında həll edilməsi lazım olan məsələlər var. Bu məsələlərdən ən vacib olanları aşağıdakılardır:

- Hazırda ölkəmizdə məktəbəqədər təhsilə cəlb edilən uşaqların sayı 50-55% təşkil edir ki, bu göstəricinin daha da yüksəldilməsi istiqamətində ciddi tədbirlərin görülməsi vacibdir.
- Bundan əlavə son illərdə ümumtəhsil sahəsində ciddi tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bəzi problemlər hələ də tam olaraq aradan qalxmayıb. Xüsusilə şəhər məktəblərinin böyük əksəriyyətində siniflərdə şagird sıxlığı müəyyənləşdirilən normadan çoxdur, halbuki hər sinifə düşən şagird sayı 15-20 nəfərdən çox olmamalıdır.
- Digər bir məqam ondan ibarətdir ki, xüsusən son illərdə ölkədə bir növbədə fəaliyyət göstərən məktəblərin sayı azalmışdır Hətta Bakı şəhərində 3 növbədə fəaliyyət göstərən məktəblər belə mövcuddur. Ona görə də xüsusən bu məsələnin həll olunmasına ciddi fikir verilməlidir.

Bundan əlavə ölkədə sosial müdafiə və təminatla bağlı da bir sıra problemlərin həll olunması vacibdir. Təklif olunan məsələlərdən biri də əhaliyə ödənilən sosial müavinətlərin və pensiyaların artırılmasıdır.

Respublikamızda sahiyyənin inkişafına və onun maliyyə təminatının yaxşılaşdırılmasına yönəldilən bir sıra dövlət əhəmiyyətli tədbirlər həyata keçirilir. Lakin qeyd etmək lazımdır ki, ölkə əhalisinə göstərilən tibbi xidmət səviyyəsi Prezident İlham Əliyevin qeyd etdiyi tələblərə hələ də tam olaraq cavab vermir. Buna görə də, Respublika Prezidenti bununla bağlı konsepsiyaların həyata keçirilməsinə dair bir sıra qanun layihələri təsdiq etmişdir. Bu konsepsiyaların əsasını səhiyyənin maliyyələşdirilməsində büdcə vəsaitinin artırılması, ölkədə xəstəxana şəbəkəsinin gücləndirilməsi ilə yanaşı məcburi və könüllü tibbi sığorta üçün ayrılan vəsaitlərin yönəldilməsi və əhaliyə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması təşkil edir.

Konsepsiyalarda qeyd edilir ki:

- ölkənin səhiyyə sisteminin maliyyələşdirilməsində yeni iqtisadi əsasların tətbiq olunması ilə yanaşı, əhalinin tibbi xidmətlərdən istifadə imkanları artırılacaq;

- dövlət tərəfindən səhiyyə sahəsi üçün ayrılan vəsaitin daha səmərəli istifadəsi ilə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi təmin olunacaq.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995-ci il.
2. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. 19 iyun 2009-cu il.
3. AR-nın "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Qanunu 27 noyabr 2001-ci il.
4. "2021-ci il Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının qanunu. 29 dekabr 2020-ci il.
5. AR-nın "Dövlət sosial müdafiə fondunun 2021-ci il büdcəsi haqqında" qanunu. 29 dekabr 2020-ci il.
6. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu 2 iyul 2002-ci il.
7. Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin sədirliyilə Nazirlər Kabinetinin 2020-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasının materialları. 15 iyul 2020-ci il.
8. Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin 4 sentyabr 2014-cü il tarixli sərancamı ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı konsepsiyası".
9. "Azərbaycan Respublikasında regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı" nın təsdiqi haqqında Azərbaycan Prezidentinin fərmanı. Bakı, 29 yanvar 2019, № 500.
10. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamı ilə 24 oktyabr 2013-cü il tarixində təsdiq olunmuş "Təhsilin inkişafı üzrə Dövlət strategiyası"
11. Bağırov D.A., Həsənli M.X., (2011). "Maliyyə" dərsliyi. Bakı: "Iqtisad Universiteti" nəşriyyatı. -344 səh.

12. Ələkbərov Ə.Ə. (2005). “Azərbaycan Dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu”. Bakı, “Səda”. - 390 səh.

13. Əliyev A.Ə., Qasımov N.Ə. (2000). “Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri”. Bakı, “Elm və Təhsil”. - 225 səh.

14. Əsgərov Ə.X. (2006). “Sosial siyasət və sosial ədalət”. Bakı, “Elm”. - 150 səh.

15. Həkimova Y.A. “Regionların sosial – iqtisadi inkişafının təmin edilməsinin maliyyə mexanizminin qiymətləndirilməsi”. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri jurnalı, № 2 , 2014 s. 93-103.

16. Muradov A.N. “Həyat səviyyəsinin yaxşılaşdırılrnasında təhsilin rolu”. AMEA xəbərləri , № 1, 2006 s. 95-103.

17. Nağıyev Ə.T., Mürşüdov. R.İ. (2012). “Sosial müdafiənin təkmilləşdirilməsi istiqamətləri”. Bakı, “Səda”. - 360 səh.

18. Nəsrullayev F.A. (1999). “Məşğulluq və işsizlik” (monoqrafiya). Bakı, “Elm”. - 410 səh.

19. Nuriyev A.X. (2008) “Regionların inkişafının starteji məsələləri” (monoqrafiya), Bakı, “Təhsil”. -138 səh.

20. Rasimoğlu R. (2012). “Qloballaşan iqtisadiyyat Azərbaycan prizmasında” (monoqrafiya), Bakı, “Səda”. - 270 səh.

21. Rəhmanov F.P (2002) “Sosial sfera keçid iqtisadiyyatı şəraitində” (monoqrafiya), Bakı, “Gənclik”. -390 səh.

## İngilis dilində

1. Becker S.G. (2004). “Municipality and Economics”. London, 345 p.

2. Crouch T.A. (2013). “Financial provision of the state social policy”. London, 158 p.

3. Friedman J. (2006). “Regional Development policy”. A case study of Venezuela, London, “The MIT press”. 314 p.

4. Hakimova Y.A. “Improvement of organization of the state financial control on social sphere in the modern period”. Modern Science and Technology Innovations, 2020, p. 266-272.

5. Hasanov K.A. “Dynamics of budget expenditures for the development of education.” Economic Impact. Academia articles, 2020, p. 244-252.

6. Jackson R.M., Goeldner J.R (2010). “Economy”. London, 277 p.

7. Kenn Y.H. (2001). “Financial provision of the state social policy”. London, “HH”: 435 p.

8. Marl K.R. (2016). “Research of financial provision”. London, “PP press”. 207 p.

9. Manson J.A. (2003). “Social policy in economy”. England, 365 p.

10. Michael S.M. (2018). “A lot of Economic information about state social policy”. “Vox Media”. New York, 322 p.

11. Melon M.D. (2015). “Economy: Understanding the Economics of ME”, “University of Hawaii Press”. Honolulu, 289 p.

## Rus dilində

1. Булатов А.С. (2003) Экономика: Учебник/ А.С.Булатов. – 3-е изд., перераб.и доп. – М.: Экономистъ, – 896 с.

2. Кочетков А.А. (2005) Основы экономической теории: Курс лекций/А.А.Кочетков.-2-е изд.- М.: Издательско-торговая корпорация «Дашков и Ко». – 492 с.

## Türk dilində

1. Erdal Ö. (2007). “Dünya Ekonomisi”. Ankara, “Okulu Yayınları”. 435 s.

2. Özgür H.N. (2008). “Genel Ekonomik bilgiler”. Ankara Üniversitesi “Basın-Yüksek”, 455 s.

3. Soy İ.V. (2014). “Mali koşullarının araştırılması”. İstanbul, “HG yayın evi”. 378 s.

**İnternet resursları**

1. www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi
2. www.cabmin.gov.az - Azərbaycan Respublikası Nazirlər Kabineti
3. www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsi
4. www.meclis.gov.az - Azərbaycan Respublikası Milli Məclisi
5. www.sosial.gov.az - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
6. http://sai.gov.az/files/DSMF_yekun.pdf -DSMF statistik məlumatları 2021.
7. http://iqtisadiislahat.org/columns/icbari_tibbi_sigorta_nedir_ve_ehemiyyeti_neden_ibaretdir-108
8. https://www.scanva.org/support-for-parents/parent-resource-center-2/social-development-in-children/#:~rocess%20their%20actions.
9. http://covid19fund.gov.az/az/article/bakida-%E2%80%9Cyeni-klinika%E2%-tibb-muessisesinin-acilisi-olub/ - Koronavirusla mübarizə 2020.

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Sosial xərclərin tərkibi və əsas istiqamətləri............................................21

**Cədvəl 2:** Dövlət büdcəsi xərclərinin dinamikası (milyon manatla)........................55

## Şəkillərin siyahısı

**Şəkil 1:** 2019-2021-ci illər ərzində fond gəlirlərinin mənbələr üzrə quruluşu (milyon manatla)...................................................................................................................34

**Şəkil 2:** Fondun müxtəlif istiqamətlər üzrə xərcləri (milyon manatla).....................35

## Qrafiklərin siyahısı

**Qrafik 1:** 2020-ci il sosial büdcə xərclərinin istiqamətlər üzrə payı.........................23

**Qrafik 2:** Sosial müdafiə və sosial təminat xərclərinin illər üzrə dinamikası...........24

**Qrafik 3:** İqtisadi büdcə xərclərində əməkhaqqı ödənişlərinin illər üzrə dinamikası.................................................................................................................33

**Qrafik 4:** Təhsilin inkişafına dair büdcə xərclərinin dinamikası.............................40

**Qrafik 5:** Azərbaycanda səhiyyənin inkişaf göstəriciləri.......................................45

**Qrafik 6:** Səhiyyə sektorunun maliyyələşdirilməsində büdcə xərclərinin dinamikası.................................................................................................................49

**Qrafik 7:** 2020-ci il üçün səhiyyə xərclərinin tərkibi...............................................50

## Sxemlərin siyahısı

**Sxem 1:** Sığorta ödənişi ilə bağlı hüququ olan şəxslərin təsnifatı.............................31

**Sxem 2:** Azərbaycanda təhsil sisteminin mərhələləri..............................................41

**Sxem 3:** Ümumi təhsil məktəblərində xərclər smetası............................................41

**Sxem 4:** Sosial sahədə büdcə prosesi....................................................................62